DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 08 (370) / AVQUST 2022-Cİ İL



... biz hərtərəfli iş görürük - həm infrastruktur işləri, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellər. Cəmi bir il yarım ərzində görülən bütün işləri sadalamaq mümkün deyil. Bu, onu göstərir ki, biz bu torpaqların sahibləriyik. Bu torpaqlar 30 il ermənilərin əlində idi. Nə qoyub getdilər? Xarabaxana, viran qoyulmuş şəhərlər, kəndlər! Dəfələrlə demişəm, hər dəfə də bu dağıntıları görəndə bir daha deyəcəyəm: Elə bil ki, burada vəhşi qəbilə yaşayıb. Burada ondan da eybəcər işlər görülüb - ancaq dağıtmaq, sökmək, yandırmaq. Bu qədər nifrət, bu qədər qeyri-insani hərəkət, görəsən, haradan qaynaqlanır? Bunu gərək psixoloqlar, yaxud psixiatrlar bizə desinlər. Çünki normal adam bu əməllərə əl atmaz.

Biz isə qurub-yaradan xalqıq. Biz gəlmişik, tamamilə dağılmış 10 min kvadratkilometr ərazidə yeni həyat qururuq. Artıq yeni həyatın təzahürləri görünməkdədir. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri gedir. Məsələn, mənə verilən məlumata görə, indi Şuşa şəhərində mindən çox insan yerləşib və inşaat işləri ilə məşğuldur, xidmət sahəsində işləyir. Artıq Ağdamda sənaye parkı yaradılır. Zəngilanda, Ağalı kəndində birinci “ağıllı kənd” layihəsi istismara verilmişdir. Yəni, bunu biz edirik, biz – bu torpaqların sahibləri. Ancaq hər kəs bilməlidir, bu, çox genişmiqyaslı işdir.

Bununla bərabər, Ermənistanla bütün sərhəd boyunca yeni mövqelər, yeni postlar quraşdırılır. Heç vaxt olmayan, Ermənistan sərhədinə gedən bir çox yollar salınır ki, biz mövqelərə daha rahat gələ bilək.

Bütün bu işlərin həcmi bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bir daha demək istəyirəm, biz bu torpaqların sahibiyik, buraya qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev**
Kəlbəcər rayonunda “İstisu” sanatoriyasının
təməlqoyma mərasimindəki nitqindən
26 iyun 2022-ci il


DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ LƏNKƏRANDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Səh. 3

“DİN XADİMLƏRİ VƏTƏNƏ, MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZƏ VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASINA BAĞLI OLMALIDIRLAR”



Səh. 3

DİN XADİMLƏRİNİN TƏYİN EDİLMƏSİ İLƏ BAĞLI MÜSAHİBƏ BAŞA ÇATIB



Səh. 5

İSLAM TARİXİNİN QANLI SƏHİFƏSİ: KƏBƏNİN İŞĞALI



Səh. 10-11

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA "DİRİ BABA" TÜRBƏSİNDƏ OLUBLAR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 12-də Qobustan rayonunda "Diri Baba" türbəsində turizm infrastrukturunun yaradılması ilə bağlı aparılan yenidənqurma işləri ilə tanış olublar.

Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlətimizin başçısı və birinci xanıma türbədə görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Bakı-Şamaxı magistral yolunun 1,5 kilometrliyində yerləşən, 1402-ci ildə Şirvanşah hökmdarı I İbrahimin əmri ilə tikilən "Diri Baba" türbəsi dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli memarlıq abidəsidir. Sufi şeyxlərindən birinin şərəfinə tikilən türbənin bir hissəsi qaya içərisində yerləşdiyindən Qafqazın ən nadir abidələrindən hesab olunur. İkimərtəbəli türbə, yaxınlığında yerləşən süni şəkildə yaradılmış bir neçə mağara və kaha, həmçinin üzbəüz orta əsrlərə aid qəbiristanlıq və qədim türbə qalıqları birlikdə vahid bir kompleks əmələ gətirir.

Türbə Azərbaycanın şimal-qərb turizm dəhlizində birinci vacib dayanacaq kimi il ərzində xeyli sayda turist qəbul edir. Ərazidə turizm imkanlarının yaradılması yerli kiçik sahibkarlığın və icma əsaslı turizm dəyər zəncirinin formalaşmasına, bölgənin digər turizm əhəmiyyətli abidələrinin turizm potensialından istifadəyə və regional turizm klastrının yaranmasına töhfə verəcək.

Məlumat verilib ki, abidənin tarixi-mədəni əhəmiyyəti ilə yanaşı, turizm potensialı qiymətləndiriləərək, həmçinin antropogen və təbii amillərin təsiri ilə deqradasiyaya uğramasının qarşısını almaq məqsədilə Dövlət Turizm Agentliyi tərəfindən burada bir sıra infrastruktur və bərpa işləri aparılıb.

Ərazidə bulaq, qurbangah və söhbətgah tikilib, meydan döşəməsi yenilənib, türbəyə qalxan pilləkənlər yenidən üzlənib, ərazi abadlaşdırılaraq oturacaqlar quraşdırılıb. Eyni zamanda, türbədə gecə işıqlandırılması təmin edilib, kommunikasiya xətləri qurulub və yenilənib. Bununla bərabər, sel sularını axıdan kanal bərpa olunub, türbə kompleksinin ətrafı çəpərlənib, həmçinin 20 yerlik avtodayanacaq tikilib.

Diqqətə çatdırılıb ki, XV əsrə aid və abidənin ayrılmaz tərkib hissəsi olan tarixi qəbiristanlığın ərazisində 40 qəbir tədqiq edilib və annotasiyası hazırlanıb. Qəbiristanlığın ərazisi abadlaşdırılıb, burada şeyxlərdən birinin türbəsi aşkar edilərək arxeoloji işlər aparılıb. Abidənin ətrafındakı 8 mağara tədqiq olunub, onlardan bir neçəsi turistlərin ziyarət edə bilməsi üçün təmizlənərək hazır vəziyyətə gətirilib. Bu abidənin daş kitabəsi tədqiq edilərək rəqəmsal surəti çıxarılıb.

# MEHRİBAN ƏLİYEVA VƏ LEYLA ƏLİYEVA KONYADA MÖVLANƏ MUZEYİNİ ZİYARƏT EDİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva avqustun 9-da Türkiyənin Konya şəhərində Mövlanə muzeyini ziyarət ediblər.

Konya Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəhbəri Əbdülsəttar Yarar Birinci vitse-prezident Mehriban Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva muzey barədə məlumat verib.

Bildirilib ki, Türk və İslam dünyalarının ən böyük sufilərdən olan Mövlanə Cəlaləddin Ruminin Konyanın Karatay səmtində yerləşən muzeyi 1926-cı ildən Mövlanənin yaşadığı bina kompleksində fəaliyyət göstərir. Mədəniyyət ocağı həm də "Mövlanə türbəsi" kimi tanınır. Hündürlüyü 25 metr olan türbə dörd qalın – "fil ayaq" adlanan sütunlar üzərində tikilib. Türbənin əsas günbəzi firuzəyi rəngli olduğundan "Yaşıl qübbə" adlandırılır. İçəridən piramida formalı olub üç tərəfi açıq, cənub tərəfdən isə divarlarla örtülü olan türbənin üstü qızılı ulduzlar, zəminləri isə müxtəlif rənglərlə boyanıb. Qübbənin yuxarısında ağ xəttlə "Bismillah" və "Ayətül kürsü" həkk edilib.

Qeyd edilib ki, muzeydə Mövlanə ilə





oğlu Sultan Veledə aid iki məzar var. Burada Osmanlı dövründə hədiyyə olunan nadir əsərlər nümayiş etdirilir. Ekspozisiyanın 4 qapısı – "Dərviş", "Hamuşan", "Çələbiyan" və "Pir" qapıları mövcuddur. Türbənin önündə Osmanlı dövrünün dövlət xadimlərindən olan Mahmud Paşa tərəfindən tikilən gümüş qəfəs var.

Diqqətə çatdırılıb ki, kompleksdə yer alan məsciddə Qaramanoğulları və Osmanlı dövrlərinə aid əlyazma, "Qurani-Kərim"in nüsxələri, Məsnəvilər və miniatür əl yazmaları ilə xalı səccadələr nümayiş etdirilir.

Vurğulanıb ki, "Tilavət" adlanan otaq hazırda muzeyin xəttatlıq sənəti nümunələrinin nümayiş olunduğu bölmə kimi fəaliyyət göstərir. Ekspozisiyada Osmanlı dövrünün məşhur xəttatlarından sayılan Mahmud Cəlaləddin, Mustafa Raqim, Hülusi, İzzət, Yesarizad, Sultan II Mahmud kimi xəttatların lövhələri də var.

Daxil-i Üşşaq salonuna gümüş qapılardan daxil olurlar. Üstü üç qübbə ilə örtülmüş bu sahənin şimal tərəfində Xorasan Ərlərinə aid tabutlar və gümüş qəndillər var.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ LƏNKƏRANDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı avqustun 4-də Lənkəran şəhəri, eləcə də Lerik və Astara rayonlarından olan vətəndaşların müraciətlərinə baxıb.

Qəbuldan öncə DQİDK sədri Mübariz Qurbanlı və Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Lənkəran şəhəri Heydər Əliyev Mərkəzində baş tutan qəbulda vətəndaşların Komitənin fəaliyyət istiqamətlərinə uyğun olan müraciətləri cavablandırılıb, qaldırılan məsələlərin həlli ilə əlaqədar müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Mübariz Qurbanlı bölgədə fəaliyyət göstərən din xadimləri ilə görüşərək onların fikir və təkliflərini dinləyib.

# KOMİTƏNİN TƏLTİF EDİLMİŞ ƏMƏKDAŞLARINA VƏSİQƏLƏR VƏ MEDALLAR TƏQDİM OLUNUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 iyun 2022-ci il tarixli müvafiq Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin səmərəli fəaliyyətlərinə görə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmiş əməkdaşlarına vəsiqə və medalların təqdim olunması mərasimi keçirilib.

Tədbirdə çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Prezident İlham Əliyevin islahatlar proqramının əsas istiqamətlərindən birini dövlət qulluğu sisteminin yüksək səviyyədə qurulması və vətəndaş məmnunluğuna nail olunması təşkil edir.



M.Qurbanlı dövlət başçısı tərəfindən dövlət qulluqçularının fəaliyyətinə xüsusi diqqət və qayğı göstərildiyini, dövlət qulluğunda səmərəli fəaliyyəti ilə seçilən əməkdaşların daim dəyərləndirildiyini diqqətə çatdırıb. Komitə sədri dövlət qulluğunun məsuliyyətindən bəhs edərək əməkdaşları bir daha təbrik edib və gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Təltif olunmuş Komitə əməkdaşları çıxış edərək fəaliyyətlərinin yüksək qiymətləndirilməsinə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# "DİN XADİMLƏRİ VƏTƏNƏ, MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZƏ VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASINA BAĞLI OLMALIDIRLAR"



Avqustun 5-də Masallı şəhər Heydər Əliyev Mərkəzində Məhərrəm ayı ilə bağlı maarifləndirici tədbir keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərov, Masallı Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Araz Əhmədov, İH-nin nümayəndələri, bələdiyyə sədrləri, məscidlərin imamları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Açılışdan əvvəl Masallı RİH-nin başçısı Araz Əhmədov və DQİDK sədrinin müavini Səyavuş Heydərov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsinə ehtiramlarını bildiriblər. Ərazi bütövlüyümüzün bərpası uğrunda mübarizədə canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan RİH başçısı Araz Əhmədov rayonda dini durum barədə ətraflı məlumat verərək Məhərrəm ayının keçirilməsi ilə əlaqədar dindarların üzərinə düşən vəzifələr barədə danışıb.

Məscid və digər ibadət yerlərində dini mərasimlərin icrası zamanı qanunlara ciddi riayət olunmasının vacibliyini diqqətə çatdıran A.Əhmədov dini mərasimlərin mahiyyətinə uyğun, xurafat elementlərindən uzaq təşkil edilməsini xüsusi olaraq vurğulayıb.

DQİDK sədrinin müavini Səyavuş Heydərov qeyd edib ki, din pərdəsi altında İslamı təhrif edən, xurafatı, cəhaləti yayan, insanlar arasında ixtilafa səbəb olacaq çağırışlar edən, məzhəb ayrı-seçkiliyi salan qüvvələrə qarşı mübarizə istiqamətində dindarlarımızın üzərinə də böyük məsuliyyət düşür. S.Heydərov din xadimlərinin Vətənə, milli-mənəvi



dəyərlərimizə, o cümlədən azərbaycançılıq ideologiyasına bağlı olmalarının önəmini bildirib. "Bizim başlıca vəzifəmiz vətəndaşlarımızı, xüsusilə gənclərimizi yad dini ideologiyaların təsirindən qorumaqdır. Bu baxımdan maarifləndirmə tədbirlərinin səmərəliliyinin artırılmasına xüsusi önəm verilir", - deyə sədr müavini əlavə edib.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin Masallı rayonu üzrə qazısı Rəşid Talıbov, Masallı şəhər "Cümə" məscidinin imamı Məftun Hüseynov və başqaları çıxış ediblər.

# "DİNİ ZƏMİNDƏ BÖLÜCÜLÜYÜN MİLLİ TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

Avqustun 10-da Daxili Qoşunların Biləcəri qəsəbəsində yerləşən N saylı hərbi hissəsində "Dini zəmində bölücülüyün milli təhlükəsizliyə təsiri" mövzusunda tədbir keçirilib.

Hərbi hissənin şəxsi heyətinin iştirak etdiyi tədbirdə öncə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan hərbi hissə komandirinin müavini Elsevər Fətəliyev hərbi hissələrdə bu cür görüşlərin mütəmadi şəkildə həyata keçirilməsinin əhəmiyyətindən bəhs edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov çıxış edərək dini və etnik zənginliyə malik xalqımızın tolerantlıq ənənələrinin uğurla inkişaf etdirildiyini diqqətə çatdırıb. Sədr müavini Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, bütün xalqların və dinlərin nümayəndələrinin ortaq dəyərlər ətrafında birləşməsini özündə təcəssüm edən azərbaycançılıq məfkurəsinin ölkəmizin tərəqqisində müstəsna rolunun olduğunu xüsusi olaraq qeyd edib. S.Heydərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızın tolerant dəyərləri təbliğ edən ölkələrdən olmasını, milli-dini birlik ideyasının Azərbaycanın dövlət siyasəti səviyyəsində həyata keçirildiyini, eləcə də hər bir vətəndaşın dini etiqad azadlığının təmin olunmasına dəstək göstərildiyini bildirib. Ölkəmizdə multikultural dəyərlərin qorunub saxlanıldığını da diqqətə çatdıran sədr müavini 44 günlük Vətən müharibəsindən də danışaraq deyib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dinindən və milliyyətindən asılı olmayaraq hər bir azərbaycanlı yumruq kimi birləşərək işğal altında olan torpaqlarımızı işğaldan azad etdi.

Azərbaycanda dini durumun tam sabit olduğunu qeyd edən Səyavuş Heydərov deyib ki, bu gün ölkəmizdəki sabitliyi, inkişafı gözü götürməyən bəzi xarici qüvvələr var və onlar siyasi müstəvi ilə yanaşı, dini zəmində də Azərbaycana təsir göstərməyə, müxtəlif zərərli dini ideologiyaları ölkəmizə ixrac etməyə çalışırlar: "Əlbəttə, dövlətimiz güclüdür, respublikamızda həm hüquqi müstəvidə, həm də maarifləndirmə baxımından bu cür təhdidlərin qarşısını almaq üçün lazımi tədbirlər görülür". Dövlət Komitəsinin sədr müavininin sözlərinə görə, hətta bəzən müəyyən xarici siyasi dairələrin radikallardan istifadə etməsi və bəzi ölkələrdə fərqli məzhəb mənsubları arasında qarşıdurma yaratmaq cəhdləri ictimai təhlükəsizlik baxımından ciddi təhdiddir. Bunu Yaxın Şərq təcrübəsi və orada hazırda davam edən proseslər bir daha açıq şəkildə göstərir.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Heydər Əliyev və azərbaycançılıq" adlı sənədli filmi nümayiş etdirilib.

# DÖVLƏT KOMİTƏSİNİN MƏTBUAT XİDMƏTİNİN AÇIQLAMASI



Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı Səfirliyinin 2022-ci il avqustun 4-də bir qrup radikal dini dəstənin hücumuna məruz qalmasını, barbar və vandal düşüncənin təsiri altında olan qaragüruh dəstə üzvlərinin Səfirliyin yerləşdiyi binanın eyvanında üzərində şüarlar olan parçalar qaldırmasını və radikal dini şüarlarla çıxış etməsini kəskin şəkildə pisləyirik.

İslam dininə və onun ali dəyərlərinə zidd olaraq öz çirkin məqsədlərinə çatmaq üçün bu tip əməllərə yol verənlər bununla İslam dininə zərbə vurmuş olurlar. Mütərəqqi islami dəyərlərə həqarətlə yanaşıb, din adından sui-istifadə edənlərin heç bir mənəvi-əxlaqi, hüquqi normalara sığmayan hərəkətləri Azərbaycan cəmiyyəti, dini cameəsi, o cümlədən ölkəmizdə fəaliyyət göstərən dini konfessiyalar tərəfindən də qətiyyətlə pislənilir. İslam dünyasının bir parçası olan Azərbaycan dünyəvi dövlətdir. Ölkəmizdə dinimizə, islami dəyərlərə hərtərəfli diqqət, qayğı göstərilir. Dini etiqad azadlığının, multimədəni harmoniyanın əsas təminatçısı, milli-mənəvi dəyərlərin hamisi olan Prezident İlham Əliyev vətəndaşların dini inanclarının qorunmasını daim prioritet vəzifə kimi qarşıya qoymuşdur. Tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verən ölkəmizin dövlət-din modeli özündə İslam dünyasının ən unikal və mütərəqqi dəyərlərini birləşdirir, xalqımızın və dövlətimizin inkişafına maneçilik törədə biləcək dini fanatizmi, radikalizmi və ekstremizmi rədd edir. İstər məzhəblər, istərsə də dinlərarası münasibətlərin səviyyəsinə görə Azərbaycan həm Şərq, həm də Qərb üçün uğurlu örnəkdir. Bu gün ölkəmizin dünyada mədəniyyətlər və dinlərarası dialoqun aktiv təşkilatçısı olduğu beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən etiraf olunan həqiqətdir. Heç bir dini qrup və dini cərəyan Azərbaycanın beynəlxalq aləmdəki bu imicinə və böyük iradə tələb edən fəaliyyətinin nəticəsinə xələl gətirə bilməz.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı açıqlamasında din pərdəsi altında törədilən, heç bir dini əqidəyə sığmayan, hüquqa zidd avantürist hadisəyə Azərbaycan hökumətinin münasibəti ifadə olunmuşdur. Belə təxribatçı cəhdlər möhkəm təməllər üzərində təşəkkül tapmış dövlətçiliyimizin əsaslarını heç bir vəchlə sarsıda bilməz və əminik ki, tez bir zamanda xalqımızın şərəf və qürur abidəsi sayılan bayrağımıza hörmətsizlik edənlər, Səfirliyin binasında vandal əməllərə yol verənlər öz layiqli cəzalarını alacaqlar.

# AZƏRBAYCAN XALQI ÖZ MİLLİ VƏ MƏNƏVİ DƏYƏRLƏRİNƏ, DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNƏ DAİM SADİQLİK NÜMAYİŞ ETDİRİB



"Azərbaycanda dövlət-din münasibətləri yüksələn xətlə inkişaf etməkdədir. Mütəmadi olaraq dini etiqad azadlığı ilə bağlı qanunvericilik bazası təkmilləşdirilib, vətəndaşların əqidəsindən irəli gələn vəzifələri yerinə yetirmələri üçün müvafiq şərait yaradılıb. Dövlət tərəfindən tarix-mədəniyyət abidələri olan ibadət evləri bərpa edilib, onlarla məscid inşa edilərək möminlərin istifadəsinə verilib". Bu sözləri mətbuata açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə bildirib. Komitə rəsmisi deyib ki, hər il dövlət başçısının Sərəncamı ilə dini icmalara maliyyə yardımı ayrılır, eyni zamanda, din xadimlərinin sosial təminatını yüksəltmək məqsədilə onlara maddi dəstək verilir. Görülən işlərin nəticəsidir ki, ölkəmizdə dini mühitdə daim sabitlik hökm sürür, cəmiyyətimizdə dözümlülük və birgəyaşayış ənənəsi qorunub saxlanılır. Bunun ən bariz nümunəsini milli və dini mənsubiyyətindən asılı olmayaraq çiyin-çiyinə Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə aparmış oğul və qızlarımız göstərib.

C.Əlifzadə vurğulayıb ki, bununla belə, bəzi dini qruplar Azərbaycandakı dövlət-din münasibətlərindəki harmoniyanı, cəmiyyətin həmrəyliyini görməzdən gələrək inadla dini mühitdə gərginlik yaratmaq cəhdlərini davam etdirir. Həmin qruplar müxtəlif dini terminləri, müqəddəs şəxsləri öz əməllərinə, dinimizin prinsiplərinə qətiyyən uyğun olmayan siyasi maraqlarına alət edərək dövlətçilik ənənələrimizə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş dövlət quruluşumuza qarşı təbliğat aparır, çağırışlar edirlər. Din adı altında yad mədəniyyətləri yaymağa və xarici ölkələrin siyasi maraqlarını təmin etməyə, xüsusilə də gənclərimizi milli-mənəvi dəyərlərimizdən uzaq salmağa çalışırlar.

Dövlət Komitəsinin şöbə müdiri deyib ki, xarici dini dairələrin təsiri altında olan şəxslər dövlətlə möminlər arasında etimadsızlıq yaratmaq məqsədilə müxtəlif adlarla qanunsuz aksiyalar təşkil edir, dini dəyərlərimizə zidd əməllərini "din uğrunda edirik" deməklə onun paklığına ləkə gətirməkdən də çəkinmirlər. Hətta dini məzmunlu mahnı oxuyub, onun dini-siyasi mübarizənin himni kimi təqdim edir, müxtəlif yerlərdə video çəkilişlər apararaq bunu xalqın dövlətə qarşı etirazı kimi qələmə vermək kimi əsassız fikirlər yayır, dini və sosial qarşıdurma yaratmağa, təxribat törətməyə, həmçinin, Azərbaycanın dünyadakı imicinə zərbə vurmağa çalışırlar. Belə işlərə azyaşlı uşaqları, qadınları, xüsusən də şəhid ailələri və qazilərimizi cəlb etməklə onlar siyasi maraqlarının təmini naminə heç bir mənəvi dəyər tanımadıqlarını göstərirlər.

Artıq Məhərəm ayının başladığını deyən C.Əlifzadə bildirib ki, ölkəmizdə daim bu ay böyük ehtiramla qeyd edilib, ibadət evlərində məhərrəmlik mərasimlərinin təşkili, möminlərimizin dini ayinlərini sərbəst şəkildə, milli-mənəvi dəyərlərimizə uyğun keçirmələri üçün hər cür şərait mövcuddur. Dövlət orqanları tərəfindən hüququn aliliyi prinsipi əsasında vətəndaşların dini etiqad azadlığından irəli gələn vəzifələrini yerinə yetirmələri, habelə, mərasimlər zamanı neqativ tendensiyalar və ictimai asayişin qorunması istiqamətində lazımi tədbirlər həyata keçirilməkdədir. "Ümumiyyətlə, Azərbaycan xalqı daim öz milli və mənəvi dəyərlərinə, dövlətçilik ənənələrinə sadiqlik nümayiş etdirib. Eyni zamanda, cəmiyyətimiz dünyada və regionda baş verən proseslərin ölkəmizə təsirlərini, yarada biləcəyi təhdidləri müəyyən etmək üçün geniş dünyagörüşünə malikdir. Əminliklə deyə bilərik ki, xalqımız bu gün sözügedən aksiyaların arxasında duranları yaxşı tanıyır, niyyətlərini anlayır, dindən siyasi məqsədləri naminə istifadə edilməsi cəhdlərini ikrah hissi ilə qarşılayır. Cəmiyyətimizdə ölkəmizin ictimai-siyasi, eləcə də dini sahədəki sabitliyi pozmağa yönəlmiş çirkin oyunların dövlətimiz tərəfindən qarşısının alıncağına inam tamdır", - deyə Dövlət Komitəsinin rəsmisi vurğulayıb.

# ALBAN-UDİ XRİSTİAN DİNİ İCMASI XOCAVƏND RAYONUNDAKI QƏDİM ALBAN MƏBƏDİNİ ZİYARƏT EDİB

Xocavənd rayonunun Hadrut qəsəbəsində yerləşən qədim Alban məbədi uzun illərdən sonra növbəti dəfə əsl sahibləri olan udilər tərəfindən ziyarət olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Alban-Udi Xristian dini icmasının üzvləri uzun illərdən sonra öz ata-babalarından miras qalan Ağxaç kilsəsində olublar. Onlar burada dini ayin icra edərək şamlar yandırıb, dualar oxuyublar.

İcmanın sədri Robert Mobili bildirib ki, bu kilsə qədim Alban dövlətinin mirası olan tikilidir. Qeyd edib ki, Hadrut qəsəbəsində iki qədim Alban məbədi var. Bunlardan biri Ağxaç kilsəsidir. Bu tikili Çinarlı kəndində yerləşir və X əsrə aiddir. Digəri isə Müqəddəs Məryəm ana kilsəsidir. Adı çəkilən kilsə XII əsrdən qalan Alban yadigarıdır. İşğal ərəfəsində ermənilər kilsədə saxtakarlıq etməklə bəzi dəyişikliklərlə buranı özününküləşdirməyə çalışıblar. Burada erməni dilində yazılar yazıb, altar hissəni dəyişdiriblər. Onlar nə etsələr də, tarixi dəyişə bilməzlər.



"Artıq tarixi ədalət bərpa olunub. Otuz il müddətində torpaqlarımız erməni işğalında olduğu kimi, dini məbədlərimiz də əsirlikdə idi. Lakin müzəffər Ordumuzun gücü sayəsində kilsələrimiz də azadlıqdadır. X-XII əsrə aid olan kilsələr əsl sahibləri olan Alban udiləri qarşılayır. Uzun illərdən sonra onlar öz ata-babalarından yadigar qalan məbədlərində dini ayin icra etdilər. Gördük ki, ermənilər bu kilsəni də mənimsəməyə çalışıblar. Buraya sonradan gətirilən erməni yazısı olan daşların yeni olduğu da ilk baxışdan görünür. Amma tarixi ədaləti saxtalaşdırmaq heç də asan deyil. Çünki bu irsin, bu torpaqların azərbaycanlılara aid olduğu hər kəs tərəfindən etiraf edilir", - deyə icma sədri diqqətə çatdırıb.

O bildirib ki, Həvari kilsələrinin əsl varisləri olan Alban-udilər öz dini inanclarını qoruyub saxlamaqla, tolerant və multikultural Azərbaycan cəmiyyətində yaşadırlar. Bunun bariz nümunəsidir ki, bu gün alban məbədini birlikdə ziyarət edirik. Prezident İlham Əliyevin də dediyi kimi, işğaldan azad edilən ərazilərdə bərpa işləri aparılır, o cümlədən bu məbədlər də bərpa edilərək əsl varislərinə geri qaytarılacaq.

Qeyd edək ki, Xocavənd rayonunun Hadrut qəsəbəsində yerləşən Alban kilsələri tarix-memarlıq abidəsi olaraq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli abidə kimi qeydiyyata alınıb.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ GƏNCLƏRİ NÖVBƏTİ KÖNÜLLÜ FƏALİYYƏTƏ DƏVƏT EDİR




Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında dövlət orqanlarına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi bilikləri artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoyulmuşdur. Bu məqsədlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqələndirməklə ölkədə gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi prosesini davam etdirir.

Könüllülük fəaliyyəti 2022-ci ilin oktyabr ayından başlayaraq 2023-cü ilin may ayına qədər davam edəcək.

Könüllü kimi fəaliyyət göstərib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən xüsusi sertifikatlar veriləcəkdir ki, bu da onların gələcəkdəki əmək fəaliyyətlərinə uğurlu bir keçid fürsəti olacaqdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində könüllülər sırasına qoşulmaq istəyən gənclər "Könüllü anketi"ni doldurub 16.08.2022-ci il tarixdən 16.09.2022-ci il tarixədək konullu@scwra.gov.az elektron ünvanına göndərə bilərlər.

Müvafiq tələblərə cavab verən şəxslərlə əlaqə saxlanılacaq və onlar müsahibəyə dəvət ediləcəklər.

Əlavə məlumat üçün: (012) 437 31 15

# DİN XADİMLƏRİNİN TƏYİN EDİLMƏSİ İLƏ BAĞLI MÜSAHİBƏ BAŞA ÇATIB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən keçirilən İslam dininə aid ibadət yerlərinə (məscidlər) din xadimlərinin təyin edilməsi ilə bağlı müsahibə başa çatıb. 24 may 2022-ci il tarixində elan edilmiş müsahibəyə 39 vakant vəzifənin tutulması üçün 270 namizədin sənədi qeydə alınıb. Namizədlərdən 215 nəfəri ali, 55 nəfəri orta ixtisas təhsillidir. Onlardan 25 nəfəri xaricdə dini təhsil alıb. Qalanları isə Azərbaycanda fəaliyyət göstərən dini təhsil müəssisələrində oxuyublar.

02-13 avqust tarixlərində keçirilən müsahibədə 251 nəfər iştirak edib. Onlardan 133 nəfər müsahibədən uğurla keçib, 118 nəfər isə müsahibədən keçid balını toplaya bilməyib. 19 nəfər müxtəlif səbəblərdən müsahibədə iştirak etməyib.



Xatırladaq ki, Azərbaycanda "Dini etiqad azadlığı haqqında" Qanuna dəyişiklikdən sonra "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" hazırlanaraq təsdiq edilib.

Qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimlərinin təyin edilməsi səlahiyyətləri Dövlət Komitəsinə verilib. Komitə eyni zamanda İslam dininə aid ibadət yerlərinə din xadimlərinin təyin edilməsi, attestasiyası ilə bağlı qaydalara uyğun olaraq, üç din xadimi vəzifəsini müəyyənləşdirib - imam, imam müavini, dini ayinlərin icraçısı (müəzzin).

Müsahibə DQİDK-nın yaratdığı müsahibə komissiyası tərəfindən aparılıb. Müsahibə komissiyasının sədri DQİDK-nın sədr müavini Gündüz İsmayılovdur. Komissiya üzvləri Mehman İsmayılov (DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru), Cahandar Əlifzadə (DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri), Nahid Məmmədov (DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri), Rəhim Rəhimli (DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdir müavini), Mirniyaz Mürsəlov (DQİDK-nın tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutunun prorektoru) və Əhməd Niyazovdur (DQİDK-nın tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutunun İslamşünaslıq kafedrasının müdiri).

Müsahibə komissiyasının sədri Gündüz İsmayılov açıqlamasında bildirib ki, bir vakansiya yeri üzrə birdən çox şəxs uğurla keçərsə, həmin yerə namizədlərdən ən yüksək bal toplayan din xadimi təyin olunacaq. Digər namizədlər isə iki il müddətinə ehtiyat kadrlar siyahısına salınacaq. Vakansiya yeri boş qaldığı halda ehtiyatda olan kadrlara həmin yer təklif ediləcək. Könüllü şəkildə istəyənə həmin yerə təyinat veriləcək.

G.İsmayılovun sözlərinə görə, şəffaflığı təmin etmək, eyni zamanda dini ali və ya orta ixtisas təhsili olan şəxslərin din xadimi təyin edilməsi üçün belə bir qaydalar hazırlanıb. Bundan sonra din xadimləri təyin olunacaq şəxslər qanunun tələblərinə uyğun olaraq dini ali və ya orta ixtisas təhsilli olacaqlar. Həmçinin müsahibə olduğu üçün şəffaflıq təmin ediləcək. Digər tərəfdən, zərurət yarandıqca, din xadimlərinin rotasiya qaydasında yerdəyişməsi olacaq.



Qeyd edək ki, avqustun 10-da DQİDK yanında İctimai Şuranın üzvləri - Nüşabə Məmmədova, Çingiz Bayramov, Rauf Zeyni də müşahidəçi qismində müsahibədə iştirak edib və namizədlər üçün yaradılmış şəraitlə tanış olublar.

Müsahibədən uğurla keçmiş namizəd 30 iş günü ərzində komitə sədrinin əmri ilə İslam dininə aid ibadət yerinə və ya ziyarətgaha din xadimi təyin olunacaq və bu barədə Qafqaz Müsəlmanları İdarəsinə məlumat veriləcək.



# XIV ƏSRƏ AİD FRESKALAR UNESCO-NUN ÜMUMDÜNYA İRS SİYAHISINA DAXİL EDİLİB

İtaliyanın şimalındakı qədim Padua şəhərində səkkiz müxtəlif binadakı XIV əsrə aid freskalar silsiləsi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bu barədə "The history blog" məlumat verib.

95 ildən artıq bir müddət ərzində altı rəssam tərəfindən həm dini, həm də qeyri-dini tikililərdə çəkilmiş freskalar 40.000 kvadrat fut divarları və tavanları əhatə edir. Onları Avropa rəssamlığında məkan münasibətləri və optika anlayışında dönüş nöqtəsi olan vizual üslub birləşdirir. Bu freskalar Bizans üslubunun abstrakt formallığından İntibah dövrü rəssamlığının naturalizminə və perspektivinə keçidi təmsil edir.

Paduanın görməli yerlərindən ən məşhuru böyük italyan rəssamı Ciotto di Bondone tərəfindən freskalarla bəzədilmiş məşhur Skroveni Kapellasıdır. Cəmi iki il ərzində, 1303-1305-ci illər arasında Ciotto kapellanın bütün daxili səthində Bakirə Məryəmin və Məsihin həyatından 39 səhnə işləyib.

Nef divarlarının altındakı dördüncü sıra yeddi rəzalət və yeddi fəziləti əks etdirən daha kiçik lövhələrlə bəzədilib. Bu freskalar süni mərmər haşiyədə yerləşdirilib. Sikstin kapellasında olduğu kimi, nefin uzun mənzərəsi bütün qərb divarı boyunca döşəmədən tavana qədər olan "Qiyamət" mövzusundakı freska ilə tamamlanır. Tavanda qızılı ulduzlarla bəzədilmiş tünd mavi səma və həvarilərin, peyğəmbərlərin, müqəddəslərin, İsa Məsihin, Madonna ilə Körpənin portretləri olan yuvarlaq medalyonlar əks olunub.

Orta əsrlər incəsənətinin bu şah əsərinin konteksti də böyük tarixi əhəmiyyətə malikdir. Belə ki, Ciottoya bu kilsəni bəzəməyi bankir Enriko Skroveni həvalə etmişdi. Halbuki bu miqyasdakı sənət işlərinin himayədarları qismində adətən ali ruhani təbəqəsindən olanlar, kral ailəsinin üzvləri və aristokratlar çıxış edirdi. Skroveni kapellasının bəzədilməsi şəhər əhalisinin sosial və iqtisadi statusunda yeni bir dövrün başlanğıcı olmuşdu.

# AĞDAM CÜMƏ MƏSCİDİ



Bölgədə mühüm ticarət mərkəzinə çevrildiyi zaman Ağdam şəhərində Qarabağın özünəməxsus dini memarlığının monumental örnəklərindən biri - Cümə məscidi inşa olunmuşdur. Abidəni 1868–1870-ci illərdə həmin dövrün Qarabağ memarlığının aparıcı sənətkarı memar Kərbəlayi Səfi Xan Qarabaği inşa etmişdir.

Məscidin ibadət salonunun planının əsasını ortasında dörd sütun olan ənənəvi kvadrat forma təşkil edir. Kvadratın şərq və qərb tərəflərinin hər birində qurulmuş üç dərin taxça sırası salonun sahəsini genişləndirib ona düzbucaqlı forma verir. İbadət zalının cənub divarının ortasında uca mehrab taxçası quraşdırılmışdır. Yan taxçaların üstü interyerə yönələn eyvan şəklində olub qadınların ibadəti üçün nəzərdə tutulmuşdur. İbadət salonu yan eyvanların ortalarında və mehrab tağçasının yanlarında olan pəncərələrdən işıqlanır. İbadət salonunun interyer tərtibatı çox ciddi olub kamil tektonik quruluşun bədii effekti ilə diqqəti cəlb edir. Sadə bəzəkli mehrab tağçasının üzərindəki kitabədə dekor ustasının adı (mərhum Kərbəlayi Nəqqaş Təbrizinin oğlu ustad Məhəmməd Nəqqaş Təbrizi) və təmir tarixi (hicri 1331, miladi 1913-cü il) yazılmışdır. Məscidin şimal tərəfindəki giriş qapısı dərin eyvan-bastağ içərisində verilmiş, açıq eyvanın yanlarında isə ikimərtəbəli otaqlar yerləşdirilmişdir. Şimal fasadın künclərində qurulan minarələr məscidin simmetrik plan quruluşunu tamamlamaqla ona bütövlükdə kvadrat forma vermişdir. Məscidin klassik sadəliyi, həndəsi forma təmizliyi ilə seçilən və funksional tələblərə mükəmməl cavab verən planı var. İç yerləşgələri günbəz, tağ və tağbəndlərlə örtülü olan məscidin daşdan tikilmiş daş tutumu Qarabağ zonası üçün ənənəvi olan dördenişli bütöv çardaqla örtülmüşdür. Çardağın şimal fasada çıxan uclarından kərpic minarələr yüksəlir. Minarələrin incə silindrik tutumları üfüqi kəmərlərlə hissələrə bölünmüş və hər hissənin səthi kərpic hörgüsündən yaranmış sadə naxışlarla üzlənmişdir.



Ağdam məscidi ermənilər tərəfindən işğal edildiyi dövrdə çox ciddi dağıntılara məruz qalmışdır. Məscidin minarələri daxildən tamamilə sökülmüş, tavanı bir neçə yerdən uçurdulmuş, daxili tərtibatı, dizayn və divar yazıları pozulmuş, hücrələri və yardımçı otaqları dağıdılmış, kommunal və kommunikasiya xətləri tamamilə yararsız hala salınmışdı. İbadət evinin bəzək əşyaları, texniki avadanlıqları, qurğuları, bərk və yumuşaq inventarları qarət edilmiş, daxili və xarici divarları üzərində erməni və rus dillərində Azərbaycan xalqına qarşı təhqiredici ifadələr və sözlər yazılmışdı. İşğal dövründə ermənilər məscidin ibadət zalından və yardımçı otaqlarından mal-qara və donuz saxlanması, yəni tövlə kimi istifadə etmişdilər.

2020-ci il noyabrın 9-da imzalanan üçtərəfli bəyanatda nəzərdə tutulduğu kimi, Ağdam rayonu noyabrın 20-də işğalçı Ermənistan ordusu tərəfindən tam boşaldıldıqdan 3 gün sonra ölkə Prezidenti İlham Əliyev Ağdam şəhərinə səfər etmişdi. Səfər çərçivəsində ölkə başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev şəhərin dağıntıları arasında az-çox salamat qalan yeganə tikili olan Ağdam Cümə məscidini ziyarət etmişdi. Prezidentin əsas dayanacaq kimi Ağdam məscidini seçməsi onun şəhərdə nisbətən salamat qalan yeganə tikili olması ilə yanaşı, ötən illərdə Ağdamın simvoluna çevrilməsi ilə bağlıdır. Məsələ ondadır ki, 1993-cü ilin iyulunda işğal olunduqdan sonra Ağdam şəhəri, sözün həqiqi mənasında, yer üzündən silinmiş, hətta şəhərin daş-divarları da sökülüb aparılmışdır. Məruz qaldığı bu vandallığa görə "Qafqazın Xirosiması" adlandırılan şəhərdə Ağdam məscidi istisna olmaqla, bir dənə salamat tikili qalmamışdır.

İşğaldan azad olunmuş bütün ərazilərimizdə aparılan nəhəng tikinti-quruluculuq işləri Ağdam Cümə məscidini də tezliklə əvvəlki görkəminə qaytaracağına zərrə qədər də şübhə yeri qoymur. Beləki, milli-mənəvi dəyərlərimizin əsas himayəçilərindən olan ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən bu ibadət ocağının bərpa-restavrasiyasına başlanılmışdır. Layihənin icrası üçün Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti ilə müqavilə imzalanmışdır. Bərpa-restavrasiya işləri çərçivəsində əvvəlcə örtük və sement birləşmələri tamamilə çıxarılması nəzərdə tutulmuşdu. Tarixi kərpiclərin zədələnməməsi və kompozitin divardan qopmaması üçün işlər əl ilə aparılacaq. Bərpa prosesinin ikinci mərhələsində fasadlar biogen böyümədən təmizlənəcək, zədələnmiş və ya qırılmış kərpiclər bərpa ediləcək, karxana daşı hörgüsü əhəng əsaslı birləşmiş məhlul ilə yenidən işarələnəcək. Məscidin bişmiş kərpicdən hörülmüş iki minarəsinə spiralvari pilləkənlə qalxmaq mümkündür. Birinci mərhələdə qırıq birləşmələr, kafel başları və mövcud rəng nümunələri çıxarılacaq, ikinci mərhələdə minarələrin kərpic hörgülərinin biogen artımının qarşısı alınacaq, üçüncü mərhələdə isə kərpic başları bərpa olunacaq. Daha sonra rəng nümunələri və yazı zolaqları tarixi xüsusiyyətlərə uyğun olaraq mineral rəngli materialla bərpa ediləcək. Tarixi görüntülərdən də göründüyü kimi, məscid əvvəlcə taxta dam örtüyü ilə örtülüb, kərpic günbəzlər damın altında havadan və küləkdən qorunub. İlkin mərhələdə damın bütün landşaftı son biogen artımından azad ediləcək, qübbələr üzərində qırılan hörgü birləşmələri və gips




örtükləri çıxarılacaq. Konservasiya zamanı çatışmayan, zəifləmiş və ya qeyri-sabit hörgü və tonoz konstruksiyaları yenilənəcək və ya birləşdiriləcək.

Namaz zalında birinci mərhələdə əsas kərpicdən başqa bütün gips çıxarılacaq və sonrakı iş mərhələləri üçün hazırlanacaq. Bütün otaqlarda əhəng əsasında yeni, üççatlı suvaq sistemi tətbiq ediləcək, son qatda ilk versiyaya (ağ rəngli) uyğun mineral boya tətbiq olunacaq. Məscidin mehrabı da hazırda qəzalı vəziyyətdədir. Müvafiq olaraq, məscidin bərpası zamanı təxminən 2 metr hündürlüyə qədər torpaq sahəsində duzsuzlaşdırma tədbirləri həyata keçiriləcək.

Bərpa işləri bütövlükdə tarixi görünüşə uyğun olaraq həyata keçiriləcək.

Qeyd edək ki, cari ilin fevral ayının 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olublar.

# XİN: AZƏRBAYCAN İRQİ AYRI-SEÇKİLİYİN BÜTÜN FORMALARININ LƏĞV EDİLMƏSİ HAQQINDA KONVENSİYA ÇƏRÇİVƏSİNDƏ ÖHDƏLİKLƏRİNİ YERİNƏ YETİRMƏYƏ TAM SADİQDİR



Xarici İşlər Nazirliyi Azərbaycanın onuncu - on ikinci dövri hesabatlarına dair İrqi Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitənin yekun müşahidələri ilə bağlı bəyanat yayıb.

Bəyanatda bildirilir ki, Azərbaycan Respublikası hökuməti İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya (CERD) üzrə Komitənin bu yaxınlarda keçirilən sessiyasında iştirak etməkdən və Konvensiyaya uyğun olaraq onuncu - on ikinci dövri hesabatlarını Komitəyə təqdim etməkdən məmnunluq duyur. Azərbaycan çoxsaylı müxtəlif etnik, mədəni və dini qruplardan ibarət bir ölkə kimi onunla eyni multikultural dəyərləri təşviq edən CERD çərçivəsində öz öhdəliklərini yerinə yetirməyə tam sadiqdir.

Komitənin Azərbaycanın hesabatları ilə bağlı son yekun müşahidələrində qeyd edildiyi kimi, Azərbaycan CERD-in irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi ilə bağlı məqsədinə çatmaq üçün müsbət addımlar atıb. Məsələn, 2017-ci ildən Azərbaycanda qaçqınların və vətəndaşlığı olmayan şəxslərin, eləcə də hər irqdən, etnik mənsubiyyətdən olan uşaqların hüquqlarını təmin etmək üçün Azərbaycan bir sıra hüquqi və siyasi tədbirlər həyata keçirib. 2018-ci ildə Azərbaycanda ədliyyə sisteminin inkişafı üzrə Dövlət Proqramı qəbul edilib və onun məqsədi tərəfdaş ölkələrlə təlimlər və mübadilələrin həyata keçirilməsi də daxil olmaqla, məhkəmə sisteminin səmərəliliyini və keyfiyyətini artırmaqdır. Azərbaycan, həmçinin Komitənin bəzi tövsiyələrini özündə əks etdirən "İrqi ayrı-seçkiliyin qarşısının alınması və ləğv edilməsi haqqında" qanun layihəsinin qəbul etməklə ayrı-seçkiliyə qarşı öz daxili qanunvericiliyini daha da gücləndirməyə çalışır.

CERD Komitəsi, həmçinin Azərbaycanın irqi ədavətin qızışdırılmasına qarşı mövcud qanunlarını gücləndirmək üçün atdığı addımları, xüsusilə də Azərbaycan Cinayət Məcəlləsinin 283-cü maddəsinə və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna dəyişiklikləri vurğulayıb. CERD Komitəsi xüsusilə qeyd edib ki, bu düzəlişlər etnik, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin qızışdırılmasına görə daha sərt cəzalar tətbiq edir, zorakılıq və dini ekstremizmi təbliğ edən bu cür amillərin və məlumatların internet və sosial mediada yayılmasını qadağan edir.

Azərbaycan CERD-in pozuntularına görə məsuliyyətin təmin edilməsi, o cümlədən mümkün pozuntularla bağlı cinayət təhqiqatının başlanması və bunun üçün kifayət qədər əsas olduqda ehtimal olunan təqsirkarların cinayət məsuliyyətinə cəlb edilməsi üçün birgə səy göstərib. Bundan əlavə, Azərbaycan CERD tərəfindən qorunan əsas dəyərlərə sadiqdir və hər hansı milli və ya etnik qrupa qarşı nifrət və ya zorakılığı təşviq edən bəyanat və ya hərəkətləri qəbul etmir.

Azərbaycan etnik, dini və ya mənsubiyyətindən asılı olmayaraq, müvafiq qanunlar və Konstitusiya ilə müəyyən edildiyi kimi, ayrı-seçkiliyə yol verilmədən, o cümlədən azad edilmiş ərazilərdə mədəni, dini və tarixi irsin qorunmasında beynəlxalq standartlara riayət etməklə mədəni irsin qorunmasına sadiqdir.

Azərbaycanın Komitəyə tövsiyə etdiyi kimi, Azərbaycan irs obyektlərinə girişlə bağlı yeni təhlükəsizlik tədbirləri həyata keçirib, obyektlərin vəziyyətinə mütəmadi olaraq nəzarət edir və tikinti briqadalarına yenidənqurma işləri zamanı ərazilərə ziyan vurma riskini minimuma endirmək üçün prosedurlar barədə təlimatlar verib. Azərbaycan bu yerlərin mühafizəsi üçün göstərdiyi səylərinin UNESCO-nun texniki missiyası tərəfindən müstəqil nəzarətin təşkil edilməsinin önəmliliyi ilə Komitənin razılaşdığını görməkdən xüsusilə məmnun qalıb. Azərbaycan 2005-ci ildən əvvəl açıq şəkildə belə bir missiyaya çağırış edib və missiyanın mümkün qədər tez həyata keçirilməsinə yardım etmək öhdəliyinə sadiqdir. Azərbaycan 2022-ci ilin may ayında çoxsaylı konfessiyaların dini obyektlərinin qorunması üzrə səyləri yüksək qiymətləndirən ICESCO-nun oxşar missiyalarını alqışlayıb.

Yüz minlərlə məcburi köçkünün işğaldan azad edilmiş ərazilərə qayıtmasını həyata keçirməklə Azərbaycan işğaldan əvvəl regionda məskunlaşmış çoxmillətli və müxtəlif icmaların yenidən formalaşmasına da sadiqdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin bu ilin aprelində səsləndirdiyi - "Azərbaycan və burada yaşayan bütün etnik qruplar, o cümlədən ermənilər sülh və ləyaqət içində yaşayırlar" - bəyanatı ilə ən yüksək səviyyədə təsdiq olunduğu kimi, Azərbaycan etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar üçün açıqdır. Dövlətimizin başçısı bəyanatında təsdiq etdi ki, "Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizliyi... Azərbaycan dövləti tərəfindən təmin olunacaq".

Azərbaycan CERD Komitəsi ilə konstruktiv dialoqu qiymətləndirir, Komitənin fikir və tövsiyələrini müvafiq olaraq nəzərə alır. Azərbaycan irqindən, rəngindən, mənşəyindən, milli və ya etnik kimliyindən asılı olmayaraq öz ərazisində yaşayan hər kəsin hüquq və ləyaqətini bərabər əsasda dəstəkləməyə sadiq qalır, qlobal miqyasda irqi ayrı-seçkiliyin bütün forma və təzahürlərinin aradan qaldırılması kimi yekun məqsədə nail olmaq üçün fəaliyyətini davam etdirəcək".

# İNDONEZİYADA AZƏRBAYCANIN MULTİKULTİRALİZMİ MÖVZUSUNDA DOKTORLUQ DİSSERTASİYASI MÜDAFİƏ EDİLİB

İndoneziyanın Bandunq şəhərində yerləşən Sunan Gunung Djati Dövlət İslam Universitetinin aspirantı Moç Rza Fəhmi "Azərbaycan multikulturalizmi: Din, dövlət və cəmiyyət münasibətləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib.

Doktorluq dissertasiyasının müdafiəsinə Azərbaycanın İndoneziyadakı səfiri Cəlal Mirzəyev də qatılıb.

Müdafiə zamanı Azərbaycanda fərqli inanclara etiqad edən müxtəlif etnik qrupların sülh və harmoniya şəraitində birlikdə yaşadığı haqqında məlumat verilib. Dissertant Azərbaycanın bilavasitə bu xüsusiyyətləri ilə tədqiqatçıları özünə cəlb etdiyini bildirib. Aparılan araşdırmaların nəticələrinə əsasən, Azərbaycanın müstəqillik əldə etdikdən sonra multikulturalizmi dövlət ideo-



logiyasına çevirdiyi və bu ənənələrin ardıcıl surətdə inkişaf etdirdiyi qeyd olunub. Bildirilib ki, Azərbaycan vətəndaşlarını, burada yaşayan azlıqları, ölkənin suverenliyini terrorizm və radikalizm təhlükəsindən qorumaqla yanaşı, onların dinini, mədəniyyətini, dilini və adət-ənənələrini inkişaf etdirir.

M.R.Fəhmi Azərbaycanda dövlətin dini qurumlara maliyyə yardımı göstərməklə sosial-dini multikulturalizmin formalaşmasında, keçmiş Sovet İttifaqının kommunist rejimi tərəfindən dağıdılan ibadət evlərinin bərpasında və yenilərinin tikilməsində yaxından iştirakını da qeyd edib. Azərbaycan multikulturalizminin üç əsas amil – tarixi sosial faktorlar, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və hökumətin dini liderlərlə ittifaqı üzərində qurulduğunu vurğulayıb.

Qeyd edək ki, M.R.Fəhmi dissertasiya işi üzərində tədqiqat məqsədilə keçən il ölkəmizdə səfərdə də olub.

# ŞEYX MƏHƏMMƏD MƏSCİDİNİN KİTABƏSİ RƏQƏMSALLAŞDIRILARAQ BƏRPA EDİLİB

İsmayıllı rayonunun Basqal qəsəbəsində aparılan qazıntılar nəticəsində Şeyx Məhəmməd məscidinin kitabəsi tapılıb və rəqəmsallaşdırılaraq bərpa edilib. Bu, dünyada unikal kitabədir.

Bu sözləri jurnalistlərə açıqlamasında Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin Memarlıq və Layihələndirmə şöbəsinin memarı Miryəhya Cəfərzadə "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğuna təşkil olunan mediatur zamanı deyib.

"Kitabədə Basqal camaatı tərəfindən "Pir Çinar" adlandırılaraq müqəddəs hesab edilən məscidin həyətindəki çinar ağacının 1563-cü ildə əkilməsi ilə bağlı məlumat var. Məscidin bərpası zamanı onun alt qatlarında daha qədim, X əsrə gedib çıxan tikililərə rast gəlinir. Qazıntılar sübut edir ki, bu ərazidə X əsrdən yaşayış olub", - deyə Miryəhya Cəfərzadə bildirib.



# QADINLAR CƏMİYYƏT HƏYATININ BÜTÜN SAHƏLƏRİNDƏ DAHA FƏAL İŞTİRAK ETMƏLİDİRLƏR



"İslam ölkələrində qadınlar cəmiyyət həyatının bütün sahələrində daha fəal iştirak etməli, tərəqqi və quruculuğa töhfə verməlidirlər". Bu sözləri İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Taha Ciddədə İƏT-in nəzdində fəaliyyət göstərən Qadın İnkişaf Təşkilatının icraçı direktoru Əfnan bint Abdulla əl-Şuayibi ilə keçirdiyi görüşdə söyləyib.

Misir hökumətinə İƏT-in Qadın İnkişaf Təşkilatının baş ofisi üçün yer ayırdığına görə təşəkkürünü bildirən Baş katib qeyd edib ki, İslam ölkələrində qadınların təhsili, işlə təmin edilməsi, iqtisadiyyat, elm, texnologiya sahələrində iştirakı prioritet vəzifələr olmalıdır. İƏT-in Baş katibliyi təşkilata üzv ölkələrdə bu məqsədlə həyata keçiriləcək layihələrə, həmçinin Qadın İnkişaf Təşkilatında yaradılmış işçi qrupunun fəaliyyətinə hər cür dəstək verməyə hazırdır. Baş katib vurğulayıb ki, təşkilatın ən mühüm vəzifələrindən biri də üzv ölkələrdə qadın hüquqlarının qorunmasıdır.

İƏT-in Qadın İnkişaf Təşkilatı ötən il Qahirədə keçirilən konfransda təsis edilib, bu ilin fevralında isə Səudiyyə Ərəbistanının təmsilçisi, professor Əfnan bint Abdulla Əl-Şuayib təşkilatın icraçı direktoru seçilib.

# MÜSƏLMANLAR VƏ KATOLİKLƏRDƏN NÜMUNƏVİ DAVRANIŞ



Bosniya və Herseqovinada müsəlman bosniyalılar və katolik xorvatlar nümunəvi davranışları ilə fərqləniblər.

Ölkənin cənub-qərbindəki Tomislavqrad şəhəri yaxınlığında məscidin tikintisini müsəlmanlar və katoliklər birgə maliyyələşdiriblər. İnşası 2020-ci ildə tamamlan məscidin açılışı koronavirus epidemiyası səbəbindən təxirə salınmışdı.

Nümunəvi davranış ilə fərqlənən müxtəlif dinin mənsubları daha əvvəl isə bölgədəki katolik kilsəsinin tikintisini birgə həyata keçiriblər.

İnsanların bu nümunəvi davranışının bosniyalı və xorvat siyasətçilər arasında gərginliyin son həddə çatdığı bir vaxta təsadüf etməsi ölkədə alqışla qarşılanıb.

Qeyd edək ki, Bosniya müharibəsi zamanı ittifaq quran və ölkəni birlikdə müdafiə edən bosniyalılarla xorvat siyasətçilər arasında münasibətlər seçki qanunu islahatı ilə bağlı ziddiyyətlər səbəbindən hazırda pis səviyyədədir.

# QAZAXISTANDA MƏRKƏZİ ASİYANIN ƏN BÖYÜK MƏSCİDİ AÇILIB



Qazaxıstanda Orta Asiyanın ən böyük məscidi olan "Böyük Nur-Sultan"ın açılış mərasimi baş tutub.

"TRT Haber"in xəbərinə görə, mərasimdə Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev də iştirak edib. Açılışdan sonra məsciddə cümə namazı qılınıb.

Təxminən 68 min kvadratmetr sahədə inşa edilən "Böyük Nur-Sultan" Orta Asiyanın ən böyük məscidi olması ilə yanaşı, dizayn və memarlıq baxımından da dünyanın ən böyük 10 məscidi sırasındadır.

Məsciddə İslam memarlığı ilə ənənəvi qazax motivlərini birləşdirən dizayn əsasında 25 milyon şüşə mozaika ilə hazırlanmış və Allahın 99 adının həkk olunduğu Qiblə divarı diqqəti çəkir.

Məscidin əsas çilçırağı da ölçüsünə və 1,5 milyon kristalına görə dünya rekorduna malikdir. O, Hindistanda təqribən 5 min nəfərin əl işi olan oval naxışlı xalçası ilə də ziyarətçiləri valeh edir.

İslam Muzeyi, kitabxana, nikah salonu, Quran dərsləri, konfrans zalı və qapalı dayanacaqdan ibarət olan "Böyük Nur-Sultan" məscidinin ölkənin yeni simvollarından birinə çevriləcəyi gözlənilir.

# TÜRKİYƏDƏ BEŞ MİN İLLİK BÜT TAPILIB



Türkiyənin İzmir vilayətində hər il 200-ə yaxın tapıntının aşkarlandığı Yeşilova ilçəsində beş min illik tarixə malik "Tanrıça" bütü tapılıb.

Qazıntı heyətinin başçısı professor Zafer Derin tapılan 7 santimetr uzunluğundakı əsərin kub quruluşa, dairəvi başlığa və dördbucaqlı gövdəyə malik olduğunu bildirib.

"Çoxallahlı" dinlərdə ibadət üçün nəzərdə tutulan heykəlciyin Neolit dövrünə məxsus olduğunu qeyd edən Zafer Derin bölgədəki tanrıça kultunun simvolu olan heykəlciyin mərmərdən hazırlandığını, onu daşıyan şəxsə bərəkət və sağlamlıq gətirmək üçün istifadə edildiyini vurğulayıb.

# ALMANİYADA ANTİSEMİTİZMİN SƏVİYYƏSİ MÜSƏLMAN İCMASI İLƏ MÜQAYİSƏDƏ ALMANLAR ARASINDA DAHA YÜKSƏKDİR




Almaniyada almanlar arasında antisemitizm artır. Tədqiqatlar göstərir ki, almanlar özləri antisemitizmə ölkədə yaşayan müsəlmanlardan daha çox meyillidirlər. Bu da müsəlmanlar və onların yəhudilərə münasibətdə "dözümsüzlüyü" barədə bir çox stereotipi qırır.

Aparılan sorğu əsasında məlum olub ki, özlərini alman adlandıranların 60 faizi bütövlükdə antisemitizmi Almaniyada geniş yayılmış hal hesab edir, 64 faiz isə son 10 il ərzində bu problemin gücləndiyini vurğulayır. Rəyi soruşulanların 73 faizi antisemitizmi bütün alman ictimaiyyətinə aid olan problem hesab edir. Eyni zamanda, 15 faiz respondent bu məsələnin onların özləri üçün deyil, yalnız yəhudilər üçün problem olduğunu deyir.

Almaniyanın müsəlman dininə etiqad edən sakinlərinin 53 faizi bildirir ki, antisemitizm ölkədə geniş yayılıb, 51 faizi isə onun son 10 ildə gücləndiyini təsdiqləyir. Ölkədə yaşayan müsəlmanların 66 faizi antisemitizmi bütün alman cəmiyyəti üçün problem saydığı halda, 8 faizi bunu təkcə yəhudilərə qarşı yox, bütün cəmiyyətə aid olan problem hesab edir.

Ölkədə antisemitizmin nə dərəcədə geniş müzakirə olunması barədə suala alman əhalinin 31 faizi, müsəlmanların isə 28 faizi "kifayət etməyəcək dərəcədə" cavabını verib. Respondentlərin yalnız 30 faizi son 5 il ərzində bütün antisemit insidentlərin müsəlman vətəndaşlar tərəfindən törədildiyini qeyd ediblər. Buna müqabil olaraq, belə halların hər birində təqsirkarların müsəlmanlar olması vurğulanıb ki, bu da alman cəmiyyətində müsəlmanlara yanaşmada stereotiplərin kök salmasını gücləndirir.

# MİSİR TARİXİNİN YADİGARI: OSMANLI DÖVRÜNDƏ KƏBƏNİN ÖRTÜYÜNÜ HAZIRLAYAN EMALATXANA

Hazırda Səudiyyə Ərəbistanında istehsal edilən müqəddəs Kəbənin Kisva adlanan örtüyü Osmanlı imperiyası dövründə Qahirənin mərkəzindəki Xan əl-Xəlil bazarındakı emalatxanada hazırlanıb.

Bu qədim məkanın sahibi Əhməd Osman "AZƏRTAC"a müsahibəsində bildirib ki, indi də ipək parçanın üzərində Quran ayələri işlənmiş kisva hazırlanır, lakin bu gözəl sənət əsəri suvenir kimi satılır. Onun sözlərinə görə, bir əsr öncə Qahirənin əl-Hüseyn meydanında yerləşən emalatxanada onun babası tərəfindən istehsal olunan örtük hər Həcc ziyarətindən əvvəl müqəddəs Kəbənin üzərinə salınırdı. Həmin iş məkanı da böyük olub, orada 10 usta çalışıb. Lakin Səudiyyə Ərəbistanı Krallığı elan edildikdən sonra bu missiyanı Məkkənin Oum Əl-Cud məhəlləsində yerləşən fabrikdə yerinə yetirməyə başlayıblar.

Vaxtilə müsəlman aləminin ən böyük sifarişini yerinə yetirən məkanda indi təkcə Əhməd Osman çalışır və turistlər üçün suvenirlər hazırlayır. Divarlarını qara və qəhvəyi keçə vərəqlərində yazılmış ayələr və dualar bəzəyən, gümüş və qızıl saplarla zərif şəkildə işlənmiş parçalar asılmış emalatxana əcnəbi turistlərin diqqətini cəlb edir.

Osmanın babası Osman Abdülhamid XX əsrin əvvəlində sırf Misir istehsalı olan Kisvaya nəzarət edən sonuncu şəxs olub. Bundan sonra isə ailənin ən böyük sifarişləri keçmiş prezidentlər Camal Əbdel-Nasir və Ənvər Sadat da daxil olmaqla, Misir və xarici dövlətlərin yüksək vəzifəli şəxsləri üçün hərbi paltar tikmək olub.

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2021

## DOHA

Qətər Ərəbistan yarımadasının şimal-şərqində yerləşən kiçik yarımada ölkəsidir. Körfəz dövlətlərindən olan Qətərin yeganə quru sərhəddi Səudiyyə Ərəbistanı ilədir. Ərazisi 11,586 km², əhalisi isə təxminən 3 milyon nəfərdir.

Arxeoloji faktlar göstərir ki, Qətər ərazisində ilk məskunlaşma Eneolit dövrünə tasadüf edir. Sahilboyu tapılan qədim yaşayış məntəqələrində Übeyd mədəniyyətinə aid olan Mesopotamiya artefaktları aşkar edilmişdir. Müasir Qətər ərazisi tarixin müxtəlif dövrlərində Dilmun, Ərəb xilafəti, Bəhreyn əmirləri, Osmanlı və Böyük Britaniya dövlətlərinin idarəçiliyində olmuşdur.

XVIII əsrdə Qətərin ərazisində ət-Tani sülaləsinin idarə etdiyi kiçik əmirlik yaranmışdır. Sonrakı əsrdə əmirlik bütün Qətər yarımadasını öz təsiri altına almış və Bəhreyn əmirləri ilə mübarizəyə qoşulmuşdur. 1868-ci ildə ingilislər Məhəmməd ibn Tani ibn Məhəmməd ət-Taninin hakimi olduğu Qətər əmirliyi ilə müttəfiqlik haqqında müqavilə bağlayır. Bunun müqabilində Böyük Britaniya Məhəmməd ət-Tanini bütün Qətərin hakimi olaraq tanıyır. 1913-cü ildə İngiltərə ilə Osmanlı arasında bağlanmış müqaviləyə əsasən, Osmanlı Qətər ərazisinə iddiadan imtina etmiş, yarımadanın əmir və onun varisləri tərəfindən idarə olunmasına etiraz etmədiyini bildirmişdi. 1916-cı ildə Böyük Britaniya ilə bağlanmış müqaviləyə görə, Qətər ingilis protektoratlığını qəbul etmişdir. Bunun qarşılığında Böyük Britaniya ət-Tani sülaləsini bütün Qətərin hakimi kimi tanımışdır. 1935-ci il mayın 17-də şeyx Abdullah "Petroleum Development of Qatar" adlanan ingilis şirkətilə 75 il müddətinə ölkənin bütün ərazisində neftin kəşfi, çıxarılması və satışını nəzərdə tutan saziş imzalamışdır.

1948-ci ildə ilk neft quyusunun fontan vurması ilə Qətər dövlətinin dünya iqtisadiyyatında mövqeyi müsbət mənada dəyişmişdir. Onun olduqca zəif milli iqtisadiyyatı neftin hesabına qısa müddətə yüksək inkişaf səviyyəsinə çatmışdır. Neft hasilatına qədər iqtisadiyyatının əsasını mirvari ticarəti təşkil edən, kasıb ölkə sayılan Qətərin son 40 ildə iqtisadi gəlirləri və əhalisinin sosial rifahı sürətlə yüksəkmişdir. Nəticədə ən yeni texnika və avadanlıqlarla təchiz olunan neft-qaz mədənləri, neft-kimya, qaz mayeləşdirici müəssisələr, metallurgiya zavodları, su təmizləyici və suvarma qurğuları, limanlar, müasir memarlıq üslubunda binalar, yollar və s. tikilmişdir. Bu gün Qətər neft və təbii qaz ölkəsi olmaqla yanaşı, həm də böyük kapital ixracatçısıdır.

Qətərin dövlət quruluşu konstitusiyalı monarxiyadır. Ölkədə ilk Konstitusiya 1970-ci il aprelin 2-də qəbul edilmişdir. Hakimiyyət bütünlüklə ət-Tani sülaləsinin əlində cəmləşmişdir. Qanunverici və icra hakimiyyəti əmirə və onun təyin etdiyi Nazirlər Kabinetinə məxsusdur. Ölkənin ikinci Konstitusiyası 2003-cü ilin aprelində ümumxalq səsverməsi yolu ilə qəbul olunmuşdur.

Qətərin paytaxtı və ən böyük şəhəri Dohadır, ölkə əhalisinin 80%-dən çoxu bu şəhərədə yaşayır. Digər iri şəhərləri Umm-Səid və Umm-Babadır. Doha, bir növ, Qətərin simasını müəyyən edir. O, ölkənin qədim şəhəri olub, yarımadanın şərqində dayaz buxta sahilində yerləşir. Doha 1820-ci illərdə əl-Bida adlanan kiçik



yaşayış məntəqəsinin bir hissəsi kimi salınmışdır. 1971-ci ildə Qətər müstəqillik qazandıqda rəsmi olaraq ölkənin paytaxtı elan edilmişdir.

Ərazisi dəniz sahilindən başlayan Doha İran körfəzi boyunca 7 km məsafədə uzanır. XX əsrin ortalarına qədər nizamsız düzülmüş gil daxmalardan ibarət şəhər neft gəlirlərinin hesabına qısa müddətdə sürətlə dəyişməyə başlamışdır. İndi nəinki köhnə şəhərdən, hətta onun keçmişi barədə təsəvvür yarada biləcək qədim tikililərdən çox az nümunələr qalmaqdadır. Göydələnləri, ticarət mərkəzləri və dəbdəbəli restoranları ilə məşhurlaşan Doha eyni zamanda liman şəhəridir. 2012-ci ildə tamamlanan beynəlxalq hava limanı ilə şəhər həm turizm baxımından, həm də dünyanın ən mühüm ticarət mərkəzlərindən biri kimi əhəmiyyətli mərkəzə çevrilmişdir. Paytaxtda ölkənin və regionun ən böyük və müasir avadanlıqlarla təchiz olunmuş «Əl-Cəzirə» informasiya agentliyi və televiziya kanalı da fəaliyyət göstərir.

Müasir tikililərlə yanaşı, şəhərin bəzi məhəllələrində ərəb memarlıq üslubunu nümayiş etdirən tikililər də mövcuddur. İrili-xırdalı yüzlərlə məscidi Dohanın müsəlman şəhəri olduğunu daim xatırladır. “Fənar” və ya “Spiral məscidi” kimi tanınan Abdulla bin Zaid əl-Mahmud adına Qətər İslam Mədəniyyət Mərkəzi Dohanı bəzəyən memarlıq nümunələrindən biridir. Sözügedən Mədəniyyət Mərkəzi bir sıra ictimai, dini və maarifləndirici tədbirlərə ev sahibliyi etməklə yanaşı, həm də dini təhsil mərkəzi kimi fəaliyyət göstərir. Böyük məscidə, kitabxanaya, dərs otaqlarına sahib olan mərkəz həmçinin turistik məkandır və qeyri-müsəlmanların da buraya girişinə icazə verilir.

Dohanın görkəmli simvolu hesab edilən mərkəzin ən fərqləndirici xüsusiyyəti onun unikal minarə dizaynına malik olmasıdır. 2009-cu ilə qədər “Fənar” ölkənin ən böyük məscidi olmuşdur. Onun inşasında digər Qətər məscidlərində olduğu kimi, mərcan qayalardan, palçıq və ağacdan istifadə olunmuşdur. Məscid Qətərin məşhur İslam alimi və ölkənin ədliyyə sisteminin banisi Şeyx Abdulla bin Zaid Əl-Mahmudun şərəfinə adlandırılıb.

“Katara” da Qətərin ən gözəl məscidlərindən biridir. Onun dizaynı dünyaca məşhur türk məscid dizayneri Zeynəb Fadiloğluna məxsusdur. Məscidin bəzək işləri isə İstanbuldakı Dolmabağça Sarayının bərpa üzrə mütəxəssislər qrupu tərəfindən aparılmışdır. Onun fasadı firuzəyi və bənövşəyi mozaika ilə bəzədilmişdir. Məscidin minarə, günbəz və mehrabının hazırlanmasında müsəlman dünyasının müxtəlif şəhərlərindəki məşhur məscidlərdən ilhamlanılıb. Ümumilikdə, “Katara” ornamentləri, yazı və mozaika kaşıları ilə digər Doha məscidlərindən fərqlənir.

Dohanın və eyni zamanda ölkənin ən böyük məscidi 2011-ci ildə inşası başa çatan “Məhəmməd bin Əbdülvəhhab” məscididir. O, şəhərin mərkəzi hissəsinin şimalındakı Əlacabilat bölgəsində yerləşir. Məscid böyük kompleksin daxilindədir. Ümumi sahəsi təqribən 17000 m² olan kompleksin ərazisinə bağlar, açıq və qapalı dayanacaqlar və digər obyektlər daxildir. İbadət evinin tikintisinə 2006-cı ildə başlanılmış, təxmini 420 milyon riala başa gəlmişdir. Qadınlar üçün nəzərdə tutulan ibadət zalı təxminən 1200 nəfərlikdir. Cümə namazlarında məsciddə 30 minə yaxın dindar ibadət edə bilir.

Doha 2021-ci ildə İslam mədəniyyəti paytaxtı seçilmişdir.

Hazırladı: **Tural Vəlizadə**

# SƏUDİYYƏ ƏRƏBİSTANINDA NEOLİT DÖVRÜNƏ AİD QAYAÜSTÜ MƏBƏD AŞKAR EDİLİB

Səudiyyə Ərəbistanı İrs Komissiyasının rəhbərlik etdiyi layihə çərçivəsində çoxmillətli arxeoloqlar qrupu ən son texnologiyaların köməyi ilə Əl-Fav bölgəsində 8000 illik arxeoloji abidə aşkar ediblər. Bu barədə “ArkeoNews” xəbər verib.

Kində krallığının keçmiş paytaxtı olan Əl-Fav Vadi əd-Dəvasirdən 100 km cənubda, Vadi əd-Dəvasir ilə Nəcranı birləşdirən müasir magistral yolun üzərində, Rub əl-Xalinin (“Boş rüb”) kənarında yerləşir.

V-VI əsrlərdə Şimali və Mərkəzi Ərəbistandan olan köçəri tayfaların bir qrupu Kində Krallığının əsasını qoymuşdur. Bu, tarixdə ilk köçəri ərəb dövləti hesab olunur.

Tədqiqat zamanı bir sıra tapıntılar, o cümlədən daş məbədin qalıqları və Əl-Favın yerli əhalisinin öz ayin və mərasimlərini yerinə yetirdiyi qurbangahın hissələri



aşkar edilib. Qayaya oyulmuş daş məbəd Əl-Favdan şərqdəki Tüveyk dağının qırağında yerləşir.

Bundan əlavə, arxeoloqlar Neolit dövrünə aid insan məskənlərinin qalıqlarını və əraziyə səpələnmiş, müxtəlif dövrlərə aid 2807-dən çox qəbir aşkar etmişlər. Bunlar sənədləşdirilərək altı qrupa bölünmüşdür.

Arxeoloqlar həmçinin icmanın dini inancları haqqında məlumat verən çoxsaylı qədim yazılar aşkar ediblər. Onların arasında Cəbəl-Ləhək ziyarətgahında Əl-Favın sitayiş etdiyi tanrı Kahala ünvanlanmış kitabə də var.

Tapıntı Əl-Fav məbədlərinin coğrafi yayılması haqqında qiymətli məlumatlar təqdim edir və dörd monumental binanın bünövrəsini ortaya qoyur. Onlardan bəzilərində künc qüllələri olub. Tikililərin memarlıq üslubu, daxili planları və açıq həyətləri onların ticarət karvanları üçün istirahət yeri kimi istifadə edildiyini göstərir.

# İSLAM TARİXİNİN QANLI SƏHİFƏSİ: KƏBƏNİN İŞĞALI

Səudiyyə Ərəbistanı ötən əsrin otuzuncu illərinin sonunda ölkədə neftin kəşf edilməsilə yeni bir mərhələyə qədəm qoymuşdu. Neft sənayesinin inkişafı ilə əlaqədar Qərb şirkətlərinin ölkəyə sürətli axını, eləcə də başqa ölkələrdən çoxsaylı işçilərin miqrasiyası siyasi, iqtisadi və sosial sahələrdə bir sıra əhəmiyyətli dəyişikliklərə stimul vermişdi. Neftdən gələn yüksək gəlirdən sərbəst yaşamağa alışmış və çətin idarə olunan bədəvi qəbilələrinin birləşdirilməsində istifadə olunurdu. Eyni zamanda, bu dəyişikliklər ölkədə dini zəmində fikirayrılıqlarına, ziddiyyətlərə, bəzən isə toqquşmalara yol açmışdı. Bu məsələnin tarixi isə əsrin əvvəllərinədək gedib çıxırdı.

## Tarixə qısa səyahət

1913-cü ildə Ərəbistan yarımadasında din faktorundan istifadə olunmaqla müxtəlif qəbilələrin itaət altına alınmasına başlanılmışdı. Qəbilələrə dini təbliğatçılar göndərilərək, məscidlər tikdirilir, XVIII əsrdə yaşamış Əbdülvəhhab adlı şəxsin dini təliminin əsas götürüldüyü təbliğata böyük maliyyə vəsaiti sərf edilirdi. Maliyyə ilə daxil olmaq mümkün olmayan qəbilələrə isə zorakı üsullarla təzyiq göstərilirdi. Bu məqsədlə 1912-ci ildə qurulmuş "İxvan" təşkilatı qəbilələr arasında Əbdülvəhhabın dini təliminin təbliğində və hakimiyyətə sədaqətin formalaşmasında xüsusi rol oynayırdı.

Köçəri həyat yaşayan və hər hansı dövlət tərkibində təşkilatlanma ənənəsinə malik olmayan bədəvilər döyüşkənliyi, eləcə də çətin xarakterləri ilə seçilirdi. İdarə olunmaları, qəbilələrarası münasibətlərin düzəldilməsi, qan düşmənçiliyinin aradan qaldırılması üçün bədəvi qəbilələrini bir çətir ətrafında toplaya biləcək ideologiyaya ehtiyac vardı. Tarixi təcrübədən də məlum idi ki, peyğəmbər dövründə bu qəbilələri İslam dini ətrafında birləşdirmək mümkün olmuşdu. Lakin sonradan dini düşüncədə haçalanmalar bu birliyi sarsıtmışdı. Belə bir şəraitdə müvafiq dini təlim ətrafında onları yenidən toplamaq mümkün olacaq, bu təlim onları digər müsəlmanlar içərisində birləşdirən əsas təməl kimi çıxış edəcəkdi. Bu dönəmdə bədəvilər arasında ilk yardım alanlar, arazi əldə edənlər sonradan "İxvan" təşkilatının ilk nümayəndələri kimi meydana çıxmışdılar. Beləliklə, bədəvi qəbilələri vahid təlim ətrafında birləşdirmək və itaət altına salmaq mümkün olmuşdu.

Əbdulvəhhabın təlimi ətrafında birləşən "İxvan" əsas istiqamət kimi cihad və dinə dəvət fəaliyyəti üzrə formalaşmışdı. Təşkilat bu fəaliyyətlərini İslama keçid dövrü kimi xarakterizə edir, bütün qonşu qəbilələri öz ideologiyalarına dəvət edirdilər. İki və ya daha artıq dəvəti qəbul etmədikləri təqdirdə isə döyüşərək onları məcburiyyət qarşısında qoyurdular. Onlar bunu həmin qəbilələrin hidayətə çatdırılması üçün özlərinin dini vəzifəsi sayırdılar. Hətta fanatizm o həddə çatmışdı ki, yol verdikləri xətalara görə özlərinin də öldürülmələrini məqbul sayırdılar. Onların digər bir xüsusiyyəti hakim ailəyə fanatik dərəcədə bağlı olmaları və onların əmrlərinə qeyd-şərtsiz əməl etmələri idi. "İxvan" təşkilatının dini təbliğatda və qəbilələrin tabe olunmasında istifadə etdiyi sərt metod ölkənin birləşdirilməsində önəmli rol oynamaqla yanaşı, ciddi problemlər də yaradırdı. Belə ki, hakimiyyətin fəaliyyətinin mərkəzində siyasi maraqlar dayandığı halda, "İxvan" mənsubları üçün dini təlimlərinin yayılması və fərqli dini düşüncələrin istisna olunması prinsipi əsas sayılırdı. Hakimiyyət həm də ingilislərlə yaxın münasibət qurmuşdu. Digər tərəfdən, ingilislərin bölgədə siyasi əlaqələri təkcə hakimiyyətlə məhdudlaşmırdı. İngilislər müəyyən qəbilələrlə müqavilələr bağlayaraq əməkdaşlıq etdiklərindən, onların təhlükəyə düşməsini istəmirdilər. Ancaq "İxvan" mənsubları həmin əraziləri şirk yuvası saydıqlarına görə orada özlərinin doğru hesab elədikləri dini təlimi hakim mövqeyə yüksəltməyə çalışırdılar. Burada hakimiyyət və müttəfiqləri arasında uçurum yaranırdı. Artıq hakimiyyət tərəfindən ixvançılar təhlükə mənbəyi kimi dərk olunurdu. Beləliklə, "İxvan" təşkilatı öz rolunu oynadığından artıq ona ehtiyac qalmamışdı və onun aradan qaldırılması prosesi başlamışdı. Bu minvalla ölkə inkişaf etdikcə dini təlimin sərt üzü arxa plana keçir və yeni sistemə uyğunlaşdırılırdı. Buradan belə aydın olur ki, milli dövlətin qurulmasında əsasən üç vasitədən istifadə edilmişdi:

1. İdeoloji konsolidasiya: Əbdülvəhhabın təliminə əsaslanan dini təbliğat və təzyiq nəticəsində bölgədəki müxtəlif qəbilələrin bir ideologiya ətrafında birləşdirilməsi prosesi. İlk Səudiyyə dövlətinin Əbdülvəhhabın dini təlimi ilə Səud ailəsinin siyasi gücünün ittifaqından yaranması nəzərə alınaraq, milli dövlət çərçivəsində kral ailəsi legitimliyini əsaslandırmaq imkanı əldə edirdi.

2. Hərbi konsolidasiya: köçəri bədəvi tayfalarının xarakterik xüsusiyyətlərindən məharətlə istifadə olunaraq, onlardan hərbi qüvvə kimi istifadə olunmuşdu. Bədəviləri daimi yaşayışa uyğunlaşdırmaq üçün hicrət adlanan düşərgələrə salınmış, bu düşərgələrdə dini təlim keçilmişdi. Burada hazırlıq keçən bədəvilər dini duyğularından istifadə olunaraq həm aktiv dini təbliğatda iştirak etmiş, həm də "dövlətin hərbi qanadı" funksiyasını yerinə yetirmişdilər. Bununla yanaşı, qan birliyi, qohumluq əlaqələrinin qurulması üçün evlilik amilindən də yararlanılmışdı.

3. Dünyaya inteqrasiya cəhdləri: ölkənin zəngin təbii sərvətləri sayəsində çox varlanan ölkə modernləşmə zərurəti ilə üzləşmişdi. Ancaq burada ənənəvi düşüncə tərzi ilə modernləşmə toqquşurdu. Belə ki, bir çox yeniliyi rədd edən mövcud dini təlim yeni texnologiyaların tətbiqi məsələsində reallığa uyğunlaşmalıydı. "Dövlətin dini qanadı" olan din alimləri bu inkişafı qanuniləşdirməyə cəhd edirdi. Buna görə də ənənəvi mühafizəkar dini düşüncənin dəyişdirilməsi və dövlətin siyasətinə haqq qazandırılması məqsədilə baş verən dəyişikliklərin İslama uyğunluq təşkil etməsi barədə yanaşmalar ortaya atılmışdı. Bu öz təsirini, ilk növbədə, "İxvan" təşkilatı ilə dövlətin yollarının ayrılmasında göstərmişdi. İxvançılar "kafir" ölkələrlə əlaqələrin qurulması, qonşu müsəlman ölkələrlə münasibətdə dini maraqların siyasi maraqlara qurban verilməsinə qarşı çıxaraq üsyan etmişdi. 1929-1930-cu illərdə bu üsyan yatırılmış və "İxvan" təşkilatı aradan qaldırılmışdı. Buna baxmayaraq, ixvan fikirli mühafizəkar dairə hələ də dövlətin siyasətinə uyğun hərəkət edən dini kəsimlə mübarizəni davam etdirməkdə idi. İxvançıların üsyanı yatırıldıqdan sonra ölkədə dövlətləşmə prosesi tamamlanaraq siyasi müstəqillik əldə olunmuşdu.

## Hadisələrin kuliminasiyası

Keçmişdəki bu ziddiyyət 1979-cu ildə Cüheyman əl-Üteybinin rəhbərliyi ilə baş vermiş silahlı üsyanda özünü daha bariz göstərmişdi. Cüheyman əl-Üteybi nüfuzlu Uteybə qəbiləsinə aid "İxvan" təşkilatının hicrət düşərgələrindən Sacir adlanan yerdə doğulmuşdu. Atası Məhəmməd ibn Seyf "İxvan" təşkilatının üzvü idi. Bəzi mənbələrdə Məhəmməd ibn Seyfin 1929-cu ildə "İxvan"ın Səud ailəsinə qarşı üsyanı zamanı öldürüldüyü bildirilsə də, onun bu döyüşdən sağ çıxaraq 1972-ci ilədək yaşadığı, hətta oğluna döyüş xatirələrini danışdığı iddia olunur. Gənc yaşlarından Səudiyyə Milli Mühafizlərinə tabe olan hərbi birlikdə 18 il xidmət etmiş Üteybi sonradan Səudiyyə hakimiyyətini qeyri-legitim saydığından vəzifəsini tərk edərək 1965-ci ildə qurulmuş "əl-Cəmaa əs-Sələfiyyə əl-Muhtəsibə" təşkilatına qoşulmuşdu. Səudiyyənin məşhur din alimi, bir çox yüksək dövlət vəzifəsi tutmuş Şeyx ibn Baz bu təşkilatın mənəvi lideri sayılırdı. Təşkilat üzvləri mühafizəkar baxışları, aktiv təbliğatları, ünsiyyət metodları, ibadətlərdə həssaslıqları, dini məsələlərdə sərt mövqeləri ilə seçilir və zaman-zaman hakimiyyətin nəzarətində olan din alimləri üçün problemlər yaradırdılar. Bu camaatın bəzi üzvlərinin 1965-ci ildə küçələrdə mağaza vitrinlərindəki manekenləri, şəkilləri dağıtmaqları 1975-ci ildə də təkrarlanmışdı. Dövrün kralı Xalidin də portretləri onların içərisində idi. Bununla yanaşı, onlar digər İslam məzhəblərinə qarşı sərt münasibəti ilə seçilir, başqa məzhəblərin ardıcıllarına qarşı kobud davranır və onların Məscidül-Haramda ibadət etmələrinə mane olurdular. Üteybinin də lider olduğu "Mühtəsib" camaatının marginallaşması, öz məscidlərindən başqa ibadət məkanlarına namaza



Cüheyman əl-Üteybi

getməmələri, siyasi müzakirələr təşkil etmələri hakimiyyəti ciddi narahat edirdi. Onlar yığışdıqları məkanı "Beytül-İxvan" adlandırırdılar. Bu ad da keçən əsrin 20-ci illərinin sonunda hakimiyyətə qarşı çıxmış "İxvan" təşkilatına istinad edirdi.

Yaranmış narahatlığı aradan qaldırmaq üçün hakimiyyət ilk növbədə onları bu yoldan çəkindirməyi nüfuzlu din xadimlərinə həvalə etdi. İbn Bazın bu təşkilat üzrə vəkili Şeyx Cəzairinin rəhbərliyi ilə Mədinə alimlərindən ibarət bir heyət "Beytül-İxvan"a gedərək xüsusilə Cüheymanla nəsihət və xəbərdarlıq xarakterli söhbətlər apardı. 1977-ci ildə baş verən bu görüş ümumilikdə müsbət nəticə verməsə də, "İxvan" camaatının iki hissəyə parçalanmasına səbəb oldu. Təşkilatın ilk qurucuları və onların tərəfdarlarından ibarət bir qrup Şeyx Cəzairinin fikirlərinə mülayim yanaşdığı halda, əsasən gənclərdən ibarət digər qrup Cüheymanın ətrafında toplaşaraq yollarına davam etdilər. Cüheyman artıq bu qrupun əsas lideri statusunu qazanmış və fikirlərini təbliğ etmək üçün daha çox imkan əldə etmişdi.

Qısa müddət sonra Cüheymanın rəhbərliyi altında olan "İxvan" üzvlərinin silahlanması haqqında xəbərlərin yayılması polisin əməliyyat keçirməsi ilə nəticələndi. Cüheyman təşkilatın əsas simalarından olan Huzeymi də daxil olmaqla iki nəfərlə qaçıb gizləndi və ideoloji görüşlərini əks etdirən "Cüheyman əl-Üteybinin Risaləsi" əsərini yaymağa başladı. Risaləni bir çox nəşriyyat çap etməkdən boyun qaçırsa da, Küveytdə yerləşən və solçu səudiyyəlilərin nəzarətində olan "Darut-Tali" nəşriyyatı rejimə qarşı mübarizədə onlara dəstək verdi. Çap olunmuş risalə qaçaqmalçılıq yolu ilə Səudiyyə Ərəbistanına keçirildi və 1978-1979-cu illərdə ölkədə yayıldı.

İbn Cüheymana görə, müsəlmanlar bir dövlət başçısına aşağıdakı üç xüsusiyyət olduğu təqdirdə itaət etməli idilər:

1) Müsəlman olmaq;
2) Qüreyş nəslindən gəlmək;
3) Ölkəni şəriət qanunları ilə idarə etmək.

Əgər bu xüsusiyyətlər dövlət başçısında yox idisə, ondan uzaq olmaq lazımdı və ona beyət etmək olmazdı. Belə olan halda alimlər bu dövlət başçısına nəsihət və xəbərdarlıq etməli idilər. Lakin Cüheymanın fikrincə, dövrün alimləri bu şərtləri yerinə yetirmirdilər, bir qismi keşişlər kimi dünyadan üz çevirmiş, qalanları isə pis idarəçilərin əmri altına girərək dünyəvilik dalınca qaçır və hakimiyyətin əməllərini qanuniləşdirməklə məşğul olurdular.

davamı səh. 11

# İSLAM TARİXİNİN QANLI SƏHİFƏSİ: KƏBƏNİN İŞĞALI

əvvəli səh. 10



Beləliklə, Cüheyman bu alimləri gözdən salmaqla ardıcıllarını öz təşkilatı daxilində verilən fətvalar çərçivəsində hərəkət etməli olduğuna inandırırdı. O hesab edirdi ki, əhaliyə din üç mərhələdə çatdırılmalıdır:

1) Dəvət və təbliğat: əgər cəmiyyət küfr və üsyanda israr edərsə və bu dəvəti qəbul etməzsə, ikinci mərhələni tətbiq etmək lazımdır;

2) Təcrid olunmaq: bu mərhələdə möminlər kənara çəkilməli və cəmiyyətdən uzaqlaşmalı, hicrət etməlidirlər;

3) Sonuncu mərhələdə isə möminlər kafirlərə qarşı müharibə və cihad etməlidirlər.

İslam ölkələrinin rəhbərlərini, həmçinin hakimiyyəti sərt tənqid edən Cüheyman onları zülm və fasiqlikdə ittiham edirdi. Amma o bu tənqidini təkfir səviyyəsinə çatdırmayaraq, hakimiyyətin beyətə layiq olmadığını vurğulamaqla yanaşı, kafir də hesab etmir və üsyana əl atmayacaqlarını bildirirdi. Həmin dövrdə "Müsəlman Qardaşları Təşkilatı" mənşəli "Təkfir" və "Hicrət" camaatından müəyyən şəxslər Cüheymanın düşüncələrinə təsir edərək, onun fikirlərini daha da radikallaşdırmağa çalışmış, təkfirçilik fikirlərini ona təlqin etməyə səy göstərsələr də, buna nail ola bilməmişdilər.

Əvvəllər "Mühtəsib" təşkilatında olarkən "İxvan"ın tərəfdarları arasında Şeyx ibn Baz mənəvi lider kimi qəbul olunurdu, eləcə də Səudiyyənin ən önəmli din alimlərindən Şeyx Albani ölkənin dini sferasında böyük nüfuza malik idi. Adıçəkilən şəxslər təkfirçiliyə qarşı çıxış edirdilər və "İxvan" təşkilatının üzərində müəyyən təsirləri vardı. Proses isə "İxvan" camaatının din alimlərindən uzaqlaşması, yəni yuxarıda qeyd olunan ikinci - təcrid mərhələsində olduğundan artıq təşkilat üzvləri öz fəaliyyətlərini sələf alimlərinin yanaşmaları əsasında qurmurdular və onlarla əlaqəni kəsməkdə idilər. Cüheyman tərəfdarlarına: "Əgər Allahdan lazımi qədər çəkinərsinizsə, Allah sizə öyrədər" - deyərək narahat olmamağa çağırırdı. Onun tərəfdarlarından Huzeymi sonralar bildirirdi ki, təşkilat əsasən təbliğatını böyük şəhərlərdən kənarda, dini bilikləri zəif olan əhali arasında aparırdı. Çünki elmi az olan təşkilat üzvlərinin sözləri elm mərkəzlərinin yerləşdiyi bölgələrdəki əhali tərəfindən qəbul olunmurdu. Buna görə də onlar öz təbliğatlarını populizm üzərində quraraq biliyi az olan gəncləri toplayır və onlara yeganə həqiqət kimi öz ideyalarını aşılayırdılar.

Cüheymanın üzərində dayandığı digər ideya mehdilik olmuşdur. O, "Fitnə hadisələri, Mehdi, İsa peyğəmbərin qayıdışı və Qiyamət əlamətləri haqqında xəbərlər" adlı risaləsində bu ideyanı əsaslandırmağa çalışmışdı. Eyni zamanda o, insanları Mehdi ilə bağlı ideyasına inandırmaq üçün yuxu yozumu metodundan istifadə edirdi. Belə ki, o, təşkilat üzvlərinin yuxularını yozur və tezliklə gözlənilən Mehdinin gələcəyi nəticəsini çıxarırdı. Artıq Cüheymanın yuxu yozumu təşkilatın gələcək fəaliyyətini müəyyən edən əsas kriteriyaya çevrilməyə başlamışdı. Beləliklə, bir müddət sonra Cüheyman öz qaynı Məhəmməd ibn Abdullah əl-Kahtanini camaata Mehdi kimi təqdim etdi. O bu xəbəri elçi vasitəsilə İbn Baza bildirsə də, rədd cavabı aldı. İbn Baz bu məsələni fitnə kimi qiymətləndirsə də, ciddi hesab etmədiyindən və hər hansı silahlı üsyandan söhbət getmədiyindən bu barədə hakimiyyəti məlumatlandırmadı. Yeni "Mehdi" barədə söz-söhbətlər yayılsa da, hakimiyyət bunu əsassız saydığından preventiv tədbirlər görmədi.

1979-cu ilin noyabr ayının 20-də Cüheyman öz tərəfdarları ilə müsəlmanların qibləsi olan və hər il Həcc ziyarətinin həyata keçirildiyi Kəbəni işğal etdi. O, əl-Kahtanini rəsmi olaraq Mehdi elan edərək, müsəlmanların ona beyət etməsi tələbini irəli sürdü. Dini mətnlərdə Mehdi inancından irəli gələrək köklü dəyişikliklərin anonsu verildi. Dini və əxlaqi tənəzzülün qarşısının alınacağı, Səudiyyə Ərəbistanının İslamın əsaslarına geri dönəcəyi, başda ABŞ olmaqla, Qərb dövlətləri ilə əlaqələrin yenidən gözdən keçiriləcəyi bildirildi. Bu dəyişikliklər əvvəlcə Səudiyyə Ərəbistanında, sonradan digər ölkələrdə tətbiq olunacaqdı.

Onun tələbləri rədd olundu və Kəbənin azad edilməsi üçün silahlı əməliyyat başladıldı. Əvvəldən görülmüş hazırlıq nəticəsində silah və ərzaqla təmin edildiklərindən günlərlə davam edən döyüşlərdə təslim olmadılar. Fransadan gətirilən antiterror qrupunun köməyi ilə 5 dekabr 1979-cu ildə Kəbə geri alındı. 200-250 nəfərdən formalaşdığı güman olunan üsyançıların əksəriyyəti öldürüldü, Səudiyyə Ərəbistanı isə rəsmi açıqlamasında hökumət qüvvələrindən 127 nəfərin həlak olduğunu bildirdi.

İbn Bazın rəhbərliyi ilə alimlər heyətinin fətvasına əsasən sağ ələ keçirilən Cüheyman və 62 tərəfdarı edam olundu. Onların əməlləri böyük fitnə, özləri yolunu azmışlar və təxribatçılar elan edildi. Əməllərinin sələfi etiqadı və təcrübəsi ilə heç bir əlaqəsinin olmadığı bildirilərək müasir xəvariclik kimi göstərildi: "Bu fikrin ideya müəllifi olan Cüheyman ibn Seyf əl-Üteybinin ilk risaləsi yayılanda bu azmış qrupdan çəkinmək barədə xəbərdarlıq etdik. Bu qrupun müasir xəvaricliyin nümunəsi olduğunu, əvvəlki xəvariclər kimi müsəlmanlara qarşı vuruşmağı, ümməti parçalamağı, alimləri azğınlıqda ittiham etməyi, elm tələbələrinin dolanışıq üçün çalışmalarını haram saymağı, dünyəvi elmlərə və müasir dövrün kəşf və icadlarına qarşı çıxmağı, cəmiyyətdən uzaqlaşaraq mağara və çöllərdə yaşamağa təşviq etməyi metod kimi mənimsədiklərini açıqladıq. Bu qrupun irəli sürdüyü bütün bu xüsusiyyətlərin hamısı, dinə zidd olduğu kimi, ağıl və məntiqə də ziddir...".

"İxvan" təşkilatının lideri və xeyli tərəfdarının fiziki məhvi və ya həbsi onların ideologiyasının sonu olmadı. Sonralar "əl-Qaidə" kimi bir sıra radikal qruplar bu ideologiyanı yaşadaraq ona istinad etdilər.

Hazırladı: **Ruslan Əsgərov**

# "MƏLƏKLƏRİN TİKDİYİ" KİLSƏ YUNESKO-NUN ÜMUMDÜNYA İRS SİYAHISINA SALINACAQ

Kipr adasındakı Kiti kəndində yerləşən, Bizans dövrünə aid Panagia Angeloktisti kilsəsi tezliklə UNESCO-nun Ümumdünya İrsi statusunu alacaq. Bu barədə "Cyprus Butterfly"-a Kiti İctimai Şurasının prezidenti Savvas Tantist məlumat verib.

Kilsə XI əsrdə erkən xristian bazilikasının (V əs) xarabalıqları üzərində inşa edilib.

Ərəblərin basqınlarına məruz qalan qədim Kition şəhərinin sakinləri Kitiyə köçərək burada Məryəm Anaya həsr olunmuş məbəd tikmək qərarına gəliblər. Rəvayətə görə, bu yerdəki məbəd mələklər tərəfindən bir gecədə ucaldılmışdır, ona görə də onu "mələklərin tikdiyi" kilsə adlandırırlar.



XI əsrdə bazilika çarpaz günbəzli kilsəyə çevrilib. İki yüz ildən sonra isə ona bir sovməə də əlavə edilib, hazırda binaya buradan daxil olurlar.

1952-ci ildə kilsənin apsidasında (kilsə divarlarında yarımqövs şəkilli çıxıntı) bərpa işləri aparılarkən suvağın altında qucağında körpə olan Bakirə Məryəmi təsvir edən mozaika aşkar edilmişdi. O, böyük mələklər Mikayıl və Cəbrayılın əhatəsində idi. Məbəd də öz adını buradan almışdır.

Mozaika ikonoklastikadan əvvəlki ən qədim dövrə aiddir. Məryəm al-qırmızı mafororionda (başı və çiyinləri örtən Bizans geyimi), xiton (qədim yunanlarda uzun köynəyə oxşar geyim) və qırmızı ayaqqabıda, körpə İsa isə qızılı parçadan hazırlanmış paltarda, əlində tumarla təsvir edilmişdir.

Hazırda Panagia Angeloktisti kilsəsi Kipr Antik Əsərlər Departamentinin tabeliyindədir.

# BƏRPASI BAŞA ÇATAN AYAZMA MƏSCİDİ İBADƏTƏ AÇILIB

İstanbul Üsküdar Ayazma məscidi bərpa edilərək ibadət üçün açılıb.

Açılış mərasimində prezident Rəcəb Tayyib Ərdoğan da iştirak edib. Onun iştirakı ilə məsciddə cümə namazı qılınıb.

Məscid camaatının cüməsini təbrik edən Prezident Ərdoğan Üsküdarda 261 illik tarixi olan məscidin bərpasının Türkiyə və İslam dünyası üçün xeyirli olmasını arzulayıb: "Memarlığı, yeri və bir çox xüsusiyyətləri ilə şəhərimizə dəyər qatan Ayazma məscidinin qurucusu Sultan III Mustafadan bu günə qədər bu abidənin yaşadılması üçün səy göstərən hər kəsi rəhmətlə yad edirəm. Məscidin bərpasında əməyi olan hər kəsə təşəkkürümü bildirirəm", - deyə Prezident bildirib.





# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini avqust ayı ərzində də davam etdirmişdir.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**3 avqust** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, QMİ-nin Goranboy rayonu və Naftalan şəhəri üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Goranboyda Məhərrəm ayı ilə əlaqədar tədbir; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Ərdəbil" məscidində Məhərrəm ayı ilə əlaqədar; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı İsmayıllıda Məhərrəm ayı ilə əlaqədar; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri bu gün də yüksək səviyyədədir" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Talabıqışlaq kəndində "Milli dövlətçiliyin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK ilə Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Bakı şəhərində yerləşən "N" saylı hərbi hissədə "İslamda insan həyatının dəyəri" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə qazılığının birgə təşkilatçılığı ilə Ağdaş şəhəri "Hacı İsmayıl" məscidində Məhərrəm ayı ilə əlaqədar; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə qazılığının birgə təşkilatçılığı ilə Qax rayonu "Mərkəzi Cümə" məscidində Məhərrəm ayı ilə əlaqədar; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Gəncə Şəhər İcra Hakimiyyəti və Gəncə şəhər İmamzadə Ziyarətgah kompleksinin birgə təşkilatçılığı ilə Məhərrəm ayı ilə əlaqədar; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən Rayon İcra Hakimiyyəti, rayon "Gənclər evi" sosial xidmət müəssisəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə "Radikal, ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;



**4 avqust** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala və Balakən icra hakimiyyətləri, QMİ-nin adları çəkilən rayonlar üzrə qazılıqlarının birgə təşkilatçılığı ilə "Aşura mərasimi: tarix, ənənə və hüquq müstəvisində" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab rayonunda Məhərrəm ayı ilə əlaqədar; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir rayonunda Məhərrəm ayı ilə əlaqədar;

**5 avqust** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Şuşa milli-mənəvi dəyərlərimizin simvoludur" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və QMİ-nin Beyləqan rayonu üzrə qazılığının təşkilatçılığı ilə "Aşura mərasimləri: tarix, ənənə və hüquq müstəvisində" mövzusunda; DQİDK ilə Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Biləcəri qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə "İslamda insan həyatının dəyəri" mövzusunda;

**8 avqust** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon "Mərkəzi Cümə" məscidində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda;

**9 avqust** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy rayonu Safıkürd Tatarlı kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Vətən uğrunda şəhadət ən ali məqamdır" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı Rayon İcra Hakimiyyəti, rayon Uşaq və Ailələrə Dəstək Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Saatlı rayonu üzrə nümayəndəliyi və rayon Gənclər Evi Sosial Xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda;



**10 avqust** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Şabran Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Gəndob kənd məscidində "Dini radikalizm: mənəvi dəyərlərə təhdid kimi" mövzusunda;

**11 avqust** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala Rayon İcra Hakimiyyəti, rayon Gənclər və İdman İdarəsi, YAP Zaqatala rayon təşkilatının birgə təşkilatçılığı ilə "Narkomaniya ilə mübarizə istiqamətində din xadimlərinin müxtəlif platformalarda söhbət və çıxışlarının təşkili" mövzusunda;



**12 avqust** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy rayonu Xanqərvənd kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Vətənə sədaqət müqəddəsdir" mövzusunda;

**16 avqust** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Yevlax nümayəndəliyi, şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmirdə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;

**17 avqust** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Azərbaycanda Məhərrəmlik mərasimlərinin tarixi kökləri və ictimai-siyasi vəziyyətə təsiri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Rustov kəndində "Azərbaycanın multikulturalizm modeli dünyaya nümunədir" mövzusunda;

**18 avqust** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yevlax Şəhər Gənclər və İdman İdarəsi və YAP Yevlax Rayon Təşkilatının birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimiz və Azərbaycançılıq ideologiyası" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Ucar rayonu Gənclər və İdman İdarəsi, eləcə də Ucar Gənclər Evinin birgə təşkilatçılığı ilə "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin Kürdəmir rayonunda yerləşən "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "İslam dinində şəhidlik anlayışı" mövzusunda;

**23 avqust** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Dövlət Sərhəd Xidmətinin Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhlükə kimi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Tarix-Diyarşünaslıq Muzeyində "Sülh aylığı" çərçivəsində "Sülh və birgəyaşayışın əsas şərtləri" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini icmaların sosial və ictimai həyatda iştirakı" mövzusunda;

**24 avqust** - DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "Dini radikalizm və ekstremizmin təhlükələri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizmin təhlükələri" mövzusunda;

**25 avqust** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və YAP Zaqatala rayon təşkilatının birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "Dini radikalizm və ekstremizmin təhlükələri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Daxili Qoşunların Qubada yerləşən hərbi hissəsində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Ağsu rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən müəllimlərin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə bölgələrdəki dini durum müzakirə olunub.

Çıxışlar zamanı milli dövlətçiliyimizin, milli kimliyimizin formalaşmasında və möhkəmlənməsində milli-mənəvi dəyərlərin oynadığı rolun önəmi vurğulanıb, gənc nəslin mənəvi dəyərlərə bağlılıq ruhunda yetişdirilməsinin vacibliyindən danışılıb. Qeyd olunub ki, Azərbaycan dövləti mənəvi dəyərlərin təbliğ olunması və ənənəvi dini baxışlarımızın qorunub saxlanması sahəsində layihələr icra etməkdədir.



Tədbirlərdə ölkəmizdə mövcud olan nümunəvi dövlət-din münasibətləri haqqında ətraflı məlumat verilib, bu günün gənclərinin gələcək nəslin davamçıları olaraq dini radikalizm və dini ekstremizm barəsində məlumatlı olmasının vacibliyi vurğulanıb. Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanlar qardaşlıq, dostluq və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Multikulturalizmin xalqımızın həyat tərzini təşkil etdiyini vurğulayan natiqlər məzhəbçilik və dini təəssübkeşlik meyillərinin multikultural cəmiyyət üçün yad olduğunu bildiriblər.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan video-konfranslar qarşılıqlı diskussiya şəklində baş tutub.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran sualları cavablandırılıb.

# MƏNƏVİ DƏYƏRLƏR ELMİ-NƏZƏRİ MÜSTƏVİDƏ

*(Birinci yazı)*

Hər bir xalqın dəyərlər sistemi onun kimliyini ortaya qoyan əsas elementdir, cəmiyyətdə var olan birliyin təməl daşlarıdır. Sosioloji baxımdan o, xalqın, yaxud toplumun fərdlərinin formalaşdırdığı modellərin, hədəflərin və məqsədlərin başqa mədəni görüşlərlə fərqini ölçən alətdir. Mənəvi dəyərlər insanın gedəcəyi yolu müəyyən edən kompasdır – nə geyindiyi, kiminlə dostluq etdiyi, kiminlə evləndiyi, harada yaşadığı və s. bu kimi suallara onun sahib olduğu dəyərlər sistemi cavab verir. Qısası, cəmiyyəti formalaşdıran fərdlərin nələri edib, nələrə yasaq qoyduğunu məhz mənəvi dəyərlər sistemi müəyyənləşdirir. (Robbins,1993).

Cəmiyyətin sahib olduğu dəyərlər kütlələri bir-birinə sıx bağ ilə bağlayır, bu dəyərlərə sadiq olan xalq zaman-zaman xarici və daxili siyasi təzyiqləri, hücumları asanlıqla dəf edir, yaxud bu təzyiq və hücumların fəsadlarını minimum endirə bilir. Digər tərəfdən, dini və milli bağları zəif, yaxud inanc sistemi iflas etmiş cəmiyyətlər yaşadıqları xaos, qarşıdurma və anarxiya səbəbindən tarix səhnəsində çox qısa müddət mövcud olmuş, zaman keçdikcə assimilyasiyaya uğrayaraq yox olub getmişlər. Bu, sosioloji faktdır və tarix boyu dəfələrlə baş vermişdir.

Mənəvi dəyərlər zamanla milli dəyərlərlə o qədər çulğalaşmışdır ki, artıq onları bir-birindən ayrı təsəvvür etmək çətindir. Bu dəyərlərin yox olmaması üçün cəmiyyətin hər bir üzvü bir-birinə yardım etməli, dəstək olmalıdırlar. Hər bir xalqın taleyində çətin dövrlər, kənardan siyasi-iqtisadi təzyiqlər olmuşdur. Ancaq bu çətinliklərdən yalnız çarənin tükəndiyi anda bir olmağı, birlik olmağı bacaran xalqlar çıxa bilmişlər. 1999-cu ildə Keyp-Taun şəhərində keçirilmiş Dünya Dinləri Parlamentinin iclasında çıxış edən Nelson Mandela deyirdi: "Dünyanın qarşılaşdığı problemləri həll etməyə çalışanlar dini-mənəvi dəyərlərin təsirindən yararlanmağa məcburdurlar. Əks halda, heç bir uğur qazana bilməyəcəklər. Bu səbəbdən, XXI əsr dini və mənəvi dəyərlərin kəşf edildiyi əsr olacaqdır". Mandela bu sözləri söyləyərkən öz həyatını misal çəkirdi: "Bu gün burada sizin hüzurunuzdayamsa, 28 illik həbsxana həyatı və işgəncələr məni yox edə bilməyibsə, bu, aldığım dini təhsilin və inancımın nəticəsidir. Ən şiddətli zülm və işgəncələr altında belə, Tanrıya olan inancımı qətiyyən itirmədim. Heç bir addımımdan geri çəkilmədim. İnancım olmasaydı, bu mübarizədə məğlub olardım. Heç bir inancı olmayan bir çox mübarizə yoldaşlarımın bədənlərindən əvvəl ruhlarının öldüyünə şahid oldum. Bir məsələni də vurğulamağı özümə borc bilirəm ki, biz həbsxanada olanda dindar müsəlman, xristian və yəhudi insanlardan, təşkilatlardan daim dəstək gördük. Onlar bizi heç vaxt tək qoymadılar, onların sayəsində həbsxanadan savadlı insan kimi çıxdıq".

Dəyərlərin dinamik məzmunlu olması, zaman keçdikcə dəyişməsi çox uzun müddət ərzində baş verir. Tarixin hər hansı mərhələsində sıradan çıxmış dəyərlər bir müddət sonra yenidən dirçəldilə, gündəmə gələ bilər. Bu baxımdan, demək olar ki, bəşəriyyətin dəyərlər sistemi müəyyən tarixi mərhələdə, müəyyən dövrdə, müəyyən cəmiyyətdə üstünlük təşkil edən dəyər oriyentasiyalarından ibarətdir. Sivilizasiya dəyər fenomenini bir dəfə kəşf etmiş və həmişəlik onlara bağlı olaraq qalmışdır. İnsan həyatında fəallığın, təşəbbüsün, bütün yaşayışın hədləri, səviyyəsi, dəyərlərlə ölçülür. Dəyərlər şəxsiyyətin, cəmiyyətin, bəzən hətta zamanın fövqündə durur.

Hər hansı sivilizasiyaya, mədəniyyətə xas olan dəyərlərin aradan çıxması, ilk baxışda ümumbəşəri dəyərlərin də yox olması kimi görünə bilər. Halbuki heç də belə deyil. Belə ki, bir mədəniyyətdən yox olan hər hansı dəyər başqa mədəniyyətdə dirçələ, yenidən inkişaf edə, özündən əvvəlki ilə çulğalaşaraq yeni dəyərlər sistemini formalaşdıra bilər. Xeyirxahlıq, inam, tolerantlıq və s. kimi müəyyən dəyərlər var ki, ümumilikdə bəşəriyyət üçün əbədilik statusu qazanmışdır və insan bunlarsız keçinə bilməz. Lakin bəzən fərdi azadlıq hər şeyin, qalan bütün dəyərlər sisteminin fövqünə qaldırılır. Bu, əsasən Qərb cəmiyyətinin səciyyəvi xüsusiyyətidir və bəzən acı nəticələrə gətirib çıxarır. Şərq cəmiyyətində isə adət-ənənə əsas götürülür. Alman filosofu Vilhem Vindelband (1848-1915) "Qədim fəlsəfənin tarixi" kitabında yazırdı ki, "Şərq təfəkküründə ənənəçilik çox güclüdür. O, hər yenilikçi fəaliyyət qarşısında sədlər çəkir. Şərqə məxsus ətalət də buradan yaranır. Lakin buna qeyd-şərtsiz pis hadisə kimi, geriliyin səbəbi kimi qiymət verməki dayazlıqdır... Şərqi geri qoyan ətalət qüvvəsinin böyüklüyü yox, hərəkətverici qüvvənin kiçikliyidir, mənəvi sədlərin böyüklüyü yox, intellektual cəhdlərin zəifliyidir. Müasir Qərb dünyası daxilən ziddiyyətli olduğundan və rasional düşüncəni mütləqləşdirdiyindən, onun birtərəfli tərəqqisi labüd surətdə deqradasiyaya səbəb olur".



## İnsanın dəyər ölçüsü

Müasir dövrdə insanların yaşadığı böhran, ilk növbədə, dəyərlər böhranıdır və bu, Qərb filosofları tərəfindən etiraf edilmişdir. Qərb-Avropa mədəniyyətində mütləq dəyər kimi qəbul edilən şəxsiyyət, daha doğrusu, fərdiyyət, başqalarına, cəmiyyətə ikinci dərəcəli məsələ kimi baxılması, anarxizm, eqoizm sonda tənhalığa gətirib çıxarır. Fərdin suverenitetinin bəyan edilməsi ən böyük zərbəni dəyərlərə endirir. Bəli, insanın ən ali dəyər kimi qəbul edilməsi təqdirəlayiqdir. Bu, bəşər tarixinin ən böyük nailiyyətlərindəndir. Ancaq unutmaq olmaz ki, insan ali dəyər sayılırsa, ilk növbədə, onun hansı mənəvi dəyərləri daşıdığına diqqət yetirilməli, buna önəm verilməlidir. İnsanın dəyəri onun mənəvi dəyərlərə həssaslığı ilə ölçülür. Belə ki, var olan bütün dəyərləri inkar edən, həyatını nihilizm üzərində quran insanın dəyəri şübhə doğurmaya bilməz. Hesab edilir ki, hətta keçid, böhran dövrlərində - dəyərlər sisteminin transformasiyaya uğradığı vaxtlarda da dəyərlərə münasibət nihilizm səviyyəsinə enməməlidir, çünki bu, arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Qərb dünyagörüşündə isə məhz belə münasibət hegemonluq edir. Məsələn, Fridrix Nitşe "Hakimiyyət iradəsi" adlı əsərinin "Ön söz"ündə qeyd edir ki, "Ənənəvi dəyərlərin rədd edilməsi (nihilizm) gec-tez baş verməlidir. Çünki bu vaxta qədər malik olduğumuz dəyərlərin artıq heç bir dəyəri yoxdur. Onlar tükənmişdir. Elə buna görə də biz nihilizm dövrünü yaşamalıyıq ki, bu dəyərlərin heç bir əhəmiyyətə malik olmadığını dərk edə bilək". Müasir dövrün mənzərəsi bir daha sübut edir ki, Qərb cəmiyyəti artıq nihilizmin F.Nitşenin qeyd etdiyi nöqtəsinə gəlib çatmışdır. Bu isə onu göstərir ki, yeni dəyərlər sistemini formalaşdırmadan ənənəvi dəyərlərdən imtina böyük fəsadlara gətirib çıxarır. Məhz buna görə də, hər bir xalq yeniliyə can atmazdan əvvəl sahib olduğu dəyərləri qorumağa borcludur.

## Psixologiya və sosialogiyada dəyərlər anlayışı

Bəs haqqında bəhs etdiyimiz dəyərlər nədir, hansı kriteriyalarla müəyyən olunur və hansı çərçivələrə malikdir? Sosialogiya ədəbiyyatlarında onun fərqli yönlərini ön plana çıxaran müxtəlif tariflərə rast gəlinir. Geniş yayılmış təriflərdən birinə görə, "mənəvi dəyərlər - arzu olunan, insanların həyatına bələdçilik edən, əhəmiyyət dərəcələri fərqli olan hədəflərdir". Ona əxlaqi davranış baxımından verilən tərifdə deyilir ki, mənəvi dəyərlər hər hansı şəxsin başqalarını, başqalarına aid xüsusiyyətləri, istək və niyyətləri qiymətləndirərkən əsas götürdüyü ölçü meyarıdır.

Psixologiyanın isə dəyərə verdiyi tərif belədir ki, o, həyatımızın məqsədləri, hətta başqalarının da həyat qayəsi olmasını istədiyimiz şeylər və insanın həm özünü, həm də başqalarını, həmçinin başqalarının hərəkətlərini dəyərləndirmək üçün ölçü meyarıdır.

Sosiologiya və psixologiya ədəbiyyatlarında dəyərlərin tərifi kimi, təsnifatı da fərqlidir. Məsələn, Polşa əsilli amerikalı psixoloq Milton Rokiç (1918-1988) dəyər anlayışını iki qrupa bölür: məqsədə və vasitəyə yönəlmiş dəyərlər. Onun fikrincə, bərabərik, ailə təhlükəsizliyi, özünə hörmət, sosial etibar məqsədə, nəzakət, zəka, məsuliyyət isə vasitəyə yönəlmiş dəyərlərdir.

Dəyərləri bir qrupun üzvlərinin qəbul və təsdiq etdiyi ümumiləşdirilmiş inanc sistemi kimi qəbul edən Lenski isə onu iki qrupa ayırır: praqmatik və ideal dəyərlər. Birinci qrupa hər hansı qrupun və ya cəmiyyəti formalaşdıran fərdlərin sosial həyatlarını davam etdirə bilmək üçün ehtiyac duyduqları inanc sistemindən qaynaqlanan, hər kəsin faydalandığı, ideal dəyərlər ilə müqayisədə fuksionallıq imkanları daha geniş olan əxlaqi inanc formasıdır. Məsələn, çalışqan olmaq, başqalarının canına, malına və namusuna təcavüz etməmək, güvən verici olmaq. İdeal dəyərlər isə "özünü sevdiyin kimi başqalarını da sev", "bütün insanlar qardaşdır" kimi real həyatda tətbiq edilmə şansı az, xəyali və ideal gözləntilərə əsaslanan inanclardır.

Bir qrup alim hesab edir ki, dəyərlər üç qrupa bölünür: fərdi, sosial və qrup dəyərləri. Fərdi dəyərlər seçim edərkən, hobbilərimizin formalaşmasında, hər hansı əşyanı alarkən üstünlük verdiyimiz şeylərdə, qısası, fərdi baxışlarımızda özünü büruzə verir. Qrup dəyərləri müəyyən qrupun (ailə, klub, dini və ya siyasi) üzvləri tərəfindən mənimsənilmiş dəyərlərdir. Sosial dəyərlər isə ədalət, saygı, fərqlilik, bərabərlik kimi dəyərlərdir və fərdin mövcud cəmiyyət düzənində yaşamasını təmin edir.

Amerikalı psixoloq Şalom Şvartsın fikrincə isə dəyərlər on hissəyə bölünür: güc, uğur, həzz, həyəcan, təşəbbüskarlıq, itaətkarlıq, beynəlmiləlçilik, yaxşılıq sevərlik, adət sevərlilik və təhlükəsizlik. O, dəyərləri fərdi və mədəni olmaq üzrə iki səviyyədə incələyib. Fərdi səviyyədəki araşdırmada dəyərlər insanların həyatını yönləndirmədəki əhəmiyyətlərinə görə sıralanır. Dəyərlərin mədəni səviyyədə incələnməsində isə məqsəd cəmiyyətdə paylaşılan normalara əsaslanan fikirlərlə bağlı bilgi verməkdir. Bu incələmədə ölçü vahidi mədəni qrupun (xalq və ya etnik qrup) özüdür.

*(ardı var)*

**Saleh Arslan**

# İNGEGERDİN YOLU

"Heç kim çıxdığı səyahətdən əvvəlki kimi qayıtmır". Hələ qədim zamanlardan insanlar buna inanır və bu məqsədlə yollara düşürdülər. Çünki hər yeni səyahət, xüsusən də uzun səyahətlər "üfüqləri" genişləndirir: insana yeni yerləri, başqa adətləri görmək, fərqli insanlarla tanış olmaq imkanı yaradır. Bu da o deməkdir ki, səyahət insana dəyişmək üçün şans verir. Üstəlik, insan bu yola mənəvi axtarışlar üçün çıxıbsa.

Orta əsr zəvvarlarının səyahətin bir növ "keçid ayini", mənəvi bərpa yolu olması ilə bağlı ideyası bu gün də öz aktuallığını qoruyur. Sadəcə əgər əvvəllər bu cür yollara sırf dini-mistik səbəblərlə çıxırdılarsa, bu gün də öz mistikasını və fəlsəfiliyini itirməmiş bu yerlər həm də turistik məqsədlərlə insanların diqqətini çəkir. Bu yollar gözəl mənzərələr və mədəni artefaktlarla doludur və müasir dövrün çağırışı olan "yavaş həyat" konsepsiyası ilə mükəmməl uyğunlaşır. Yollara düşmək arzumuz suallarımıza cavab axtarışından, dözümlülüyümüzü sınamaq cəhdindən, yeni insanlarla tanışlıq, maraqlı hekayələr, rutini tərk etmək istəyindən, düşünmək və gələcək üçün narahatlıq keçirmək yerinə, diqqətimizi "burada və indi"yə cəmləmək bacarığı əldə etmək məqsədindən doğur. Belə bir səfərin üstünlüyü ondan ibarətdir ki, hər kəs öz yolunu, marşrutunu, büdcəsini və onu keçmə sürətini özü seçə bilər.

Planetdə dünyanın hər yerindən minlərlə insanın can atdığı bir çox marşrutlar var. Təbiətlə baş-başa qalan insan adi həyatda kim olduğunu unudur, stereotiplərdən azad olur, istər-istəməz özünə qərq olur və ruhunda bu zaman heç gözləmədiyi bir şey tapır. Hazırda bu cür səyahətlər haqqında fikirlər inkişaf edərək genişlənmişdir və qədim yollarla təkcə Allahı və ya həqiqəti axtarmaq üçün deyil, həm də özünü tapmaq üçün irəliləyə bilərsən. Əlbəttə, uzun səyahətləri sevənlər arasında özlərinə dini-mistik məqsəd qoymayaraq, sadəcə öz güclərini sınamaq və yad mədəniyyəti öyrənmək üçün uzun səfərə çıxmaq istəyənlər də var. Çünki qədim yollarla gəzmək həm də qədim memarlıq abidələrini və təbii gözəllikləri görmək fürsəti verir. Həmin yollardan biri də İngegerdin yoludur.

İngegerdin yolu (Ingegerdsleden) İsveçdə ilk xristianların ortaya çıxması ilə, yəni təxminən 1000 il əvvəl formalaşmağa başlayan qədim bir ziyarət yoludur. Yol iki böyük şəhəri - Stokholm və Uppsalanı birləşdirir. Daha dəqiq desək, yol XIII əsrdə tikilmiş Stokholmdakı Müqəddəs Nikolay kilsəsindən (Storkyrkan) başlayır, İsveçin ən qədim şəhəri - XI əsrdə əsası qoyulmuş Siqtunadan keçir və yenə də XIII əsrə aid Uppsala Kafedralında (Uppsala domkyrka) bitir. Yolboyu bir çox qədim kilsə və qəsrlərə, müxtəlif memarlıq abidələrinə, eləcə də gözəl vəhşi təbiətə malik bir neçə qoruğa və başqa görməli yerlərə rast gəlmək mümkündür.




Bu yol Böyük Kiyev knyaginyası İngegerdin (1001-1050) şərəfinə adlandırılıb. O, İsveçin ilk xristian kralı Olaf Şötkonunq və Kraliça Estridin qızı olub. Tingin (qədim skandinav xalq məclisi) qərarına əsasən, İngegerd Norveç kralı II Olafla evlənməli idi. Bu izdivac İsveçlə Norveç arasında sülhün təminatı olacaqdı. Toy payızda iki dövlətin sərhədində, Elv çayının sahilində baş tutmalı idi. 1018-ci ilin payızında əldə edilmiş razılığa uyğun olaraq II Olaf gəlin və atası ilə görüşmək üçün sərhədə gəldi, lakin onlar orada yox idi. İsveçə göndərilən elçilər məyus xəbərlərlə qayıtdılar: yayda Novqoroddan olan səfirlər Olaf Şötkonunqla görüşmüş, İsveç kralı da qızının Kiyev knyazı Vladimirin oğlu və Kiyev Rus dövlətinin gələcək hökmdarı I Yaroslavla (Müdrik) evlənməsinə razılıq vermişdi. Həmin vaxt Yaroslav Novqorodda hökm sürürdü. Kral II Olaf isə İngegerdin ögey bacısı Astrid ilə evləndi.

Mənbələrdə İngigerdin Novqoroda 1019-cu ilin yayında gəldiyi deyilir. Novqorodda o, Şərq (pravoslav) ənənəsinə keçmiş və İrina adını qəbul etmişdir. Rus Pravoslav Kilsəsində o, Novqorodlu Anna kimi yad edilir. Qeyd etmək lazımdır ki, knyaginya dövlət işlərində, xüsusilə də Rusun Şimali Avropa ölkələri ilə əlaqələrinin yaxşılaşdırılmasında fəal iştirak etmiş, Böyük Kiyev Knyazlığı ilə Polotsk Knyazlığı arasında münasibətlərdə də müsbət rol oynamışdır. Kiyevdə ilk monastırın əsasını da o qoymuşdur.

Gəzinti yolu 2014-cü ilin payızında açılıb və rəsmi olaraq 7 hissəyə bölünür:

1-ci: Müqəddəs Nikolay kilsəsi - Ulriksdal qəsri - Kista kilsəsi (22 km)

2-ci: Kista kilsəsi - Ed kilsəsi (16 km)

3-cü: Ed kilsəsi - Rozersberg qəsri (14 km)

4-cü: Rozersberg qəsri - Siqtuna (13 km)

5-ci: Siqtuna - Udensala kilsəsi (14 km)

6-cı: Udensala kilsəsi - Alsike kilsəsi (14 km)

7-ci: Alsike kilsəsi - Sunnersta kilsəsi - Uppsala (18 km)

Bu 7 hissə marşrutu tamamlamaq üçün tələb olunacaq 7 gün deməkdir, yəni hər hissə 1 günə bərabərdir. İstər dini, istərsə də tarixi gəzinti məqsədi daşımasından asılı olmayaraq, İngegerdin yolu insanların Vikinq dövründən bəri yaşadıqları və gəzdikləri ərazidən keçən gözəl və rəngarəng gəzinti yoludur. Orta əsr kilsələri, köhnə əkinçilik kəndləri, malikanələr və göllərlə əhatələnmiş bu cığır piyada və velosiped yolları, meşə və köhnə kənd yolları boyunca dolanır.

"Ingegerdsleden"in özünəməxsus, xüsusi emblemi var. Emblemdəki tac kral ailəsinə mənsubiyyət kimi İngegerdin simvoludur. Əyri xaç knyaz ailəsinin iqamətgahının nişanıdır (həmçinin zəvvarın məqsədinə gedən əyilmiş yolu simvolizə edir). Üç ağ nöqtə cığırın xristian məbədləri olan üç orta əsr şəhərini təmsil edir. Qızılı-sarı rəng əbədi işığı və Allahın izzətini simvollaşdırır. Xaçın qırmızı rəngi Allah sevgisi, alov və qanın simvoludur. İsveç Kilsəsinin gerbində də bu rənglərdən istifadə olunub.

Hazırladı: **Güney NAMAZOVA**

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

### "Şəki rayonu Baş Layısqı kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 15 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 288

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ramazanov Hasıl Camal oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əsədov Nəzər Vəli oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 iyul 2022-ci il

### "Göyçay rayonu Mırtı kəndi "Şeyx Nəbi" məscidi" dini icması

Qeydiyyat tarixi: 22 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 449

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Cahid Məhərrəm oğlu, Məmmədov Elçin Şəfəq oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Abdullayev Şəmistan Qadir oğlu, Hacıyev Dilqəm Mənsur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Məmmədov Cahid Məhərrəm oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Məmmədov Aydın Cahid oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 iyul 2022-ci il

### "Neftçala rayonu Boyat kəndi "İmam Cəfər Sadiq" məscidi" dini icması

Qeydiyyat tarixi: 29 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 332

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hacıyev Eynulla İsmayıl oğlu, Zeynalov Dilavər Novruz oğlu, Zeynalov İmaməddin Nəcəfqulu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Zeynalov Qismət İmaməddin oğlu, Əliyev Cahandar Absalam oğlu, Cavadov Şahmar Yunus oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Əliyev Əhməd Səmədağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əliyev Əbilhəsən Əlihəsən oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 iyul 2022-ci il

### "Şəki rayonu Baş Kəldək kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 19 iyun 2015-ci il
Qeydiyyat №-si: 100115C –592

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Teyyubov Səfər Əyyub oğlu, Ramazanov Nazim Daşdı oğlu, Qəribov Elmizor Həsrət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İsazadə Orxan Oruc oğlu, Həmzətov Namik Zahid oğlu, Teyyubov Əyyub Səfər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 iyul 2022-ci il

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

### "İsmayıllı rayonu Talıstan kəndi "Bilal" məscidi" dini icması

Qeydiyyat tarixi: 11 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 215

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhmədov Ədhəm Güləhməd oğlu, Əbilov Seydi Salam oğlu, Qədirov Məhəmməd Hafiz oğlu, Hüseynov Fərid Vəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Bədəlov Amid Yaqub oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 avqust 2022-ci il

### "Şamaxı şəhəri "İmamzadə" məscidi" dini icması

Qeydiyyat tarixi: 19 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 228

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şirinov Qahir Əltapdıq oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Bəhrəmov Zöhrab Ağış oğlu, Musayev Samir Tərlan oğlu, Ağababayev Anar Kazım oğlu, Nəcəfov Bəylər Həmid oğlu, Xəlilov Şamil Kamil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 avqust 2022-ci il

### "Masallı rayonu Xoşçobanlı kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 19 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 301

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əsgərov İldırım Həsənəli oğlu, Rəhmanov Əliheydər Əmir oğlu, Abuşov Bərxuda Məmmədhüseyn oğlu, Əmənov Əlifağa Ərzulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əsgərov Elnur İldırım oğlu, Əliyev Maarif Yasər oğlu, Əliyev Ülfət Böyükxan oğlu, Əsgərov Həsənağa Mahmud oğlu, Ağayev Mübariz Feyruz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Əsgərov İldırım Həsənəli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əsgərov Elnur İldırım oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 avqust 2022-ci il

### "Şəki rayonu Baş Küngüt kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 17 may 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 516

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bayramov Cahangir Sərkər oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Kərimov Natiq İsrafil oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 avqust 2022-ci il

### "Şəki rayonu Çayqaraqoyunlu kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 09 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 402

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qurbanov Cəbrayıl Səfər oğlu, Nəzərov Əhmədiyyə Məhəmmədiyə oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Ağamalıyev Fərrux Möhlüd oğlu, Ağamalıyev Azad Fərrux oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 avqust 2022-ci il

### "Qəbələ rayonu Nohurqışlaq kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A – 814

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səlimov Muxbir Muxtəsər oğlu, Əhmədov Zinhar Tacəddin oğlu, Məmmədov Rəhim Arıx oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əmrahov Ramazan Həsənağa oğlu, Əhmədov Ramazan Zinhar oğlu, Məmmədli Səfa Sadıq oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 avqust 2022-ci il

### "Quba rayonu II Nügədi kəndi "Hacı Seyid Siracəddin" məscidi" dini icması

Qeydiyyat tarixi: 22 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 420

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Babayev Mövlağa Rəşid oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Babaşov Əfqan İkram oğlu, Salıyev İlkin Nurəhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 avqust 2022-ci il

### "Quba rayonu Ağbil kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 24 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 129

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Qurban Dövlət oğlu, Məmmədov Məhəmməd Hacıməmməd oğlu, Məmmədov Cəmaləddin Abdulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məcidov Vasif Heybət oğlu, Məmmədov Rəşad İlham oğlu, Orucov Ramin Eldar oğlu, Eyyubov Fərhad İmran oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Məmmədov Məhəmməd Hacıməmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Məmmədov Zöhrab Məhəmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 avqust 2022-ci il

### "Şabran rayonu Aygünlü kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A – 725

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İlyasov Süleyman İsmayıl oğlu, İskəndərov Əmirxan Xanlar oğlu, Əliyev Səməndər Mürvət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abiyev Habil Əlişah oğlu, Abiyev Elçin Habil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 avqust 2022-ci il

### "Yevlax rayonu Əkşəm kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 01 aprel 2014-cü il
Qeydiyyat №-si: 100114A1 – 568

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhmədov Ehsan Şükür oğlu, İbrahimov Nəriman Hidayət oğlu, İsrafilov Mikayıl Hacı oğlu, Bayramov Qiymət Əziz oğlu, İbrahimov Mürsəl Süleyman oğlu, Abdullayev Səfdər Alış oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədov Elşən Ramiz oğlu, Rəcəbov Əliəsgər Ələs oğlu, Rəcəbova Əminə Cümşüd qızı, Rəcəbov Qurban Ələs oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Əhmədov Ehsan Şükür oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

İbrahimov Vasif Nəriman oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 avqust 2022-ci il

### "Quba şəhəri "Cümə" məscidi" dini icması

Qeydiyyat tarixi: 02 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 –196

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Badalov İbadulla XXX dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Bayramov Ceyhun Vahid oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 avqust 2022-ci il

### "Şəki rayonu Vərəzət kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 15 iyul 2013-cü il
Qeydiyyat №-si: 100113A1 – 558

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Yəhyəyev Əsədullah Əhməd oğlu, Səlimov Akif Əhmədiyə oğlu, İslamov Məmmədiyə Hidayət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əndəlifov Alşan Nizaməddin oğlu, Həsənov Mahir Həsən oğlu, Məmmədov Vüqar Fərrux oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 avqust 2022-ci il

### "Ağdaş şəhər dindarları məscidi" dini icması

Qeydiyyat tarixi: 09 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 399

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ədilov Nazim Həmid oğlu, Hacıyev Məmmədiyə Məhəmməd oğlu, Hacıyev Kamil Bəhərçin oğlu, Ədilov Hümbət Məhyəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Kərimov Rizvan Yusif oğlu, Məmmədov Salam Əli oğlu, Həşimov İslam Rəhman oğlu, Mürsəliyev Rövşən Əfəndi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 avqust 2022-ci il

CƏMİYYƏT və DİN
№ 08 (370) AVQUST 2022-ci il

## TÜRKİYƏNİN ƏN BÖYÜK UNİVERSİTET KİTABXANASI İSTİFADƏYƏ VERİLİB




Türkiyənin ən böyük universitet kitabxanası olan İstanbul Mədəniyyət Universitetinin Ziraat Bankı Kitabxanası və Mərkəzi Dərslik Binasının açılışı olub.

Mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak edib.

Tədbirdə çıxış edən Türkiyə dövlətinin başçısı eyni anda üç min insana xidmət göstərəcək bu binada bir milyon cild kitabın olduğunu bildirib. Prezident Ərdoğan bu ilin sonunadək ölkənin məktəb kitabxanalarında kitab sayının 100 milyona çatdırılacağını deyib.

## UŞAĞA EV TAPŞIRIQLARINDA KÖMƏK ETMƏK FAYDA GƏTİRMİR

Araşdırmalar nəticəsində müəyyən edilib ki, məktəb tapşırıqlarının birlikdə yerinə yetirilməsi uşağın qiymətlərini artırmır. Halbuki onilliklər ərzində elmi ictimaiyyət valideynlərin köməyini və ev tapşırıqlarına nəzarət olunmasını təşviq edirdi. Ancaq amerikalı alimlər yeni araşdırmada bu mifin əsassız olduğunu sübut ediblər. Bu barədə "ScienceAlert" yazıb.

ABŞ alimləri dövlət və özəl məktəblərin 1-5-ci sinif şagirdlərini əhatə edən iki məlumat toplusundan istifadə ediblər. Nəticələr təhlil edilərkən valideynlərin sosial-iqtisadi vəziyyəti və təhsili də nəzərə alınıb. Valideynlərin ev tapşırıqlarına kömək etməsi ilə uşağın riyaziyyatda və ya qiraətdə uğur qazanması arasında heç bir əlaqə tapılmayıb.

Alimlər müəyyən ediblər ki, böyüklərin və ya uşağın nə qədər ağıllı olmasından, sosial-iqtisadi vəziyyətindən və dərsliklərə nə qədər vaxt sərf edilməsindən asılı olmayaraq, bunun uşağın akademik nəticələrinə ciddi təsir göstərməsi ehtimalı çox azdır.

Onlar belə nəticəyə gəliblər ki, düzgün münasibət və düzgün strategiya seçdikdə böyüklər uşağa təhsilə məhəbbət aşılaya bilərlər.

Lakin məktəbdə uğur qazanmağa kömək etmək əvəzinə, ona mane ola biləcək amillər var. Məsələn, valideynlər ev tapşırığına kömək etməyi stres kimi qəbul edə bilərlər ki, bu da müəyyən gərginlik və ya təzyiq yarada bilər. Yetkinlərdə vaxtın kifayət qədər olmaması onları sadəcə olaraq tapşırıqları özbaşına yerinə yetirməyə və izahat əvəzinə cavabları təqdim etməyə gətirib çıxara bilər. Lakin alimlər bu cür yardımın uğursuzluğunun əsas səbəbini valideynlərin sadəcə olaraq müəllimlər kimi məlumatı ötürməyi bacarmadıqlarında görürlər.

Tədqiqatçıların fikrincə, birlikdə ev tapşırıqlarının yerinə yetirilməsi akademik müvəffəqiyyətə təsir etməsə də, məsələn, uşağın psixoloji sağlamlığının profilaktikası və ya birlikdə keçirilən vaxtın artırılması nöqteyi-nəzərdən müsbət nəticələr verə bilər.

## İNSANLARDA ZAMANI DUYMAQ HİSSİ DƏYİŞİB



Alimlər insanların zaman duyğusunun yavaşladığını və bunun COVID-19 pandemiyası ilə əlaqədar olduğunu hesab edirlər.

Braziliyanın San-Paulu ştatındakı ABC Federal Universitetinin alimləri COVID-19 pandemiyasının pik vaxtında 5 ay ərzində onlayn sorğular vasitəsilə apardıqları tədqiqatın nəticələrini dərc ediblər.

Alimlərin araşdırması göstərir ki, COVID-19 pandemiyası insanların zamanın gedişatını duyma tərzini dəyişib. Tədqiqat iştirakçılarının əksəriyyəti bildirib ki, zaman daha yavaş hərəkət etməyə başlayıb, alimlər də bunu "zamanın genişlənməsi" hissi adlandırıblar. "SciTechDaily" yazır ki, insanın, demək olar, heç bir işi çatdıra bilmədiyi halda "zamanın təzyiqi" anlayışı praktiki olaraq yoxa çıxıb.

"Nəticələr göstərib ki, özünü depressiyada və tənha hiss edən insanlar vaxtın əvvəlkindən daha yavaş keçdiyini hesab edirdilər. Lakin çox stresli vəziyyətdə olanda vaxt onlar üçün daha sürətlə uçurdu", - deyə ABC Federal Universitetindən Andre Kravo qeyd edib.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Sentyabr - 2022)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:43 | 06:07 | 12:40 | 17:19 | 19:28 | 20:32 |
| 2 | 04:44 | 06:08 | 12:40 | 17:18 | 19:26 | 20:30 |
| 3 | 04:45 | 06:09 | 12:40 | 17:17 | 19:24 | 20:28 |
| 4 | 04:46 | 06:10 | 12:40 | 17:15 | 19:23 | 20:26 |
| 5 | 04:48 | 06:11 | 12:39 | 17:14 | 19:21 | 20:24 |
| 6 | 04:49 | 06:12 | 12:39 | 17:13 | 19:20 | 20:23 |
| 7 | 04:50 | 06:13 | 12:38 | 17:11 | 19:18 | 20:21 |
| 8 | 04:51 | 06:14 | 12:38 | 17:10 | 19:16 | 20:19 |
| 9 | 04:52 | 06:15 | 12:38 | 17:09 | 19:15 | 20:17 |
| 10 | 04:53 | 06:16 | 12:37 | 17:08 | 19:13 | 20:15 |
| 11 | 04:55 | 06:17 | 12:37 | 17:06 | 19:11 | 20:14 |
| 12 | 04:56 | 06:18 | 12:37 | 17:05 | 19:10 | 20:12 |
| 13 | 04:57 | 06:19 | 12:36 | 17:04 | 19:08 | 20:10 |
| 14 | 04:58 | 06:20 | 12:36 | 17:02 | 19:06 | 20:08 |
| 15 | 04:59 | 06:21 | 12:36 | 17:01 | 19:04 | 20:06 |
| 16 | 05:00 | 06:22 | 12:35 | 16:59 | 19:03 | 20:04 |
| 17 | 05:01 | 06:23 | 12:35 | 16:58 | 19:01 | 20:03 |
| 18 | 05:02 | 06:24 | 12:35 | 16:57 | 18:59 | 20:01 |
| 19 | 05:03 | 06:25 | 12:34 | 16:55 | 18:58 | 19:59 |
| 19 | 05:05 | 06:26 | 12:34 | 16:54 | 18:56 | 19:57 |
| 21 | 05:06 | 06:26 | 12:34 | 16:52 | 18:54 | 19:56 |
| 22 | 05:07 | 06:27 | 12:33 | 16:51 | 18:53 | 19:54 |
| 23 | 05:08 | 06:28 | 12:33 | 16:50 | 18:51 | 19:52 |
| 24 | 05:09 | 06:29 | 12:32 | 16:48 | 18:49 | 19:50 |
| 25 | 05:10 | 06:30 | 12:32 | 16:47 | 18:48 | 19:48 |
| 26 | 05:11 | 06:31 | 12:32 | 16:45 | 18:46 | 19:47 |
| 27 | 05:12 | 06:32 | 12:31 | 16:44 | 18:44 | 19:45 |
| 28 | 05:13 | 06:33 | 12:31 | 16:43 | 18:43 | 19:43 |
| 29 | 05:14 | 06:34 | 12:31 | 16:41 | 18:41 | 19:42 |
| 30 | 05:15 | 06:35 | 12:30 | 16:40 | 18:39 | 19:40 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri** ***(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## YER KÜRƏSİ GÜNƏŞDƏN UZAQLAŞIR



Alimlər hesab edirlər ki, Yerlə Günəş arasındakı məsafənin dəyişməsi iqlim dəyişikliyinə səbəb olacaq.

Planetimiz bir az elliptik orbitə malikdir, yəni o, Günəş ətrafında dairəvi dövrə vurmur. Orta hesabla Yerdən bizim ulduza qədər olan məsafə 150 milyon kilometrdir. Lakin planetimizin oval orbitinə görə bu məsafə il boyu daim dəyişir - 147 milyon kilometrdən 152 milyon kilometrə qədər. Eyni zamanda, Yerdən Günəşə olan orta məsafə yenə də artır, yəni planetimiz ulduzdan uzaqlaşır və bu, zamanla iqlim dəyişikliyinə gətirib çıxaracaq. "Bu barədə artıq narahat olmağa dəyərmi?" sualına ABŞ-ın Kaliforniya Universitetinin astronomu "Live Science" üçün yazdığı məqalədə cavab verib.

Santa Kruzdakı Kaliforniya Universitetinin astronomu Brayan DiCorcio hesab edir ki, Yerdən Günəşə olan orta məsafə tədricən artır.

"Günəşimizin, proqnozlara görə, təxminən 5 milyard il ömrü qalıb, lakin elə vaxt gələcək ki, ulduzumuz yavaş-yavaş ölməyə başlayacaq və ondan əvvəl Günəş öz kütləsinin təxminən 0,1 faizini itirəcək. Bu bir qədər az görünsə də, bu göstərici Yerdən 318 dəfə ağır olan Yupiterin kütləsi ilə müqayisə oluna bilər", - deyə DiCorcio qeyd edib.

Alimin sözlərinə görə, Günəş artıq öz kütləsini itirməyə başlayıb və onun cazibə qüvvəsi zəifləyir ki, bu da Yerin ulduzumuzdan ildə təxminən 6 sm uzaqlaşması deməkdir.

"Lakin hələlik buna görə narahat olmağa dəyməz, bu hələ çox kiçik uzaqlaşmadır", - deyə DiCorcio vurğulayıb.

### Yadigar söz

***Şeyx Məhəmməd Xiyabani***

*Amal uğrunda ölmək - əbədi yaşamaqdır!*

Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894